**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**SAHİLƏ QİYAS qızı SADIQOVA**

# MİR CƏLALIN LİRİK VƏ SATİRİK HEKAYƏLƏRİNİN TƏDRİSİ ÜSULU

**İxtisas:HSM - 06010 - Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası**

**Magistr elmi dərəcəsi almaq üçün tədqim edilmiş**
**DİSSERTASİYA**

Elmi rəhbər: _____________
T.H.Hüseynov
Filologiya üzrə elmlər doktoru,professor

**BAKI 2017**

# M Ü N D Ə R İ C A T

**GİRİŞ.................................................................................................................3**

**I FƏSİL. Mir Cəlal yaradıcılığında hekayə janra ümumi baxış ....................................9**

1.1. Azərbaycan ədəbiyyatında hekayəçilik ənənələrinə dair..........................9

1.2. Mir Cəlal Azərbaycan ədəbiyyatında hekayəçilik ənənələrinin davamçısı..............................................................................................16

**II FƏSİL. Mir Cəlal lirik və satirik hekayələrin böyük ustasıdır.................................21**

2.1. Mir Cəlal yaradıcılığında lirik hekayələr................................................21

2.2. Mir Cəlal yaradıcılığında satirik hekayələr..............................................29

**III FƏSİL. Mir Cəlal hekayələrinin tədrisi üsulları......................................................37**

3.1. Mir Cəlalın lirik hekayələrin tədrisi üsulları...........................................37

3.2. Mir Cəlalın satirik hekayələrinin tədrisi üsulları.....................................44

3.3. Orta məktəbdə Mir Cəlal hekayələrinin yeni təlim metodları ilə tədrisi.............................................................................................51

**NƏTİCƏ.........................................................................................................62**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI....................................................65**

# GİRİŞ

**Mövzu aktuallığı.** Tədqiq edilən mövzu "Mir Cəlalın lirik və satirik hekayələrinin tədrisi üsulları" metodika sahəsində az tədqiq edilmiş mövzulardan biridir. Metodika sahəsində geniş miqyasda tədqiqatlar aparılmasına baxmayaraq, ədəbiyyat metodikasında yeni təlim metodları ilə tədris baxımından az tədqiqatlar aparılmışdır. XX əsr Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elmi tarixində şöhrət tapmış parlaq şəxsiyyətlərdən biri də Mir Cəlal Paşayevdir. O, ömrünün yarısını çətin, ancaq şərəfli bədii, elmi və pedaqoji yaradıcılıq işinə həsr etmişdir. Bu çox şaxəli sahələrin hər üçü birlikdə böyük zəhmətlə inkişaf edərək bir-birini tamamlayıb zənginləşdirmişdir. Mir Cəlalın elmi məntiqi bədii ilhamına, həyata baxışına, duyğu-düşüncələr sisteminə təsir edirdi. Onun bilik potensialı, zəkası və təfəkkürü sənətini yüksəltməyə kömək etmişdir. Alim-müəllim Mir Cəlalı düşündürən bir çox mətləblər, fikirlər bədii yaradıcılığında da öz əksini tapmışdır. O, milli şifahi ədəbiyyat, klassik və müasir bədii nəsr ruhunda yetişib, mahir hekayə ustası və romançı kimi şöhrət qazanmışdır. Müəllifin adamları mərhələ-mərhələ inkişaf etdirən, güldürə- güldürə düşündürüb fəaliyyətə gətirən onlarca hekayə və novellası, ədəbiyyatımızın qızıl fonduna daxil olmuş bir çox romanı, monoqrafik tədqiqatları, elmi-nəzəri mülahizələri, dərs vəsaitləri, aktual problemlərə dair məqalə, çıxış, oçerk və publisist yazıları geniş istifadə olunan faydalı mənbələrdir.

Mir Cəlal yaradıcılığında tərbiyə problemi,müəllim-şagird-tələbə münasibətləri xüsusi yerə malik problemlərdəndir. Övladları ağıllı, səxavətli, namuslu, qeyrətli, mərd övlad, həqiqi vətəndaş kimi böyütmək, zəhmət çəkərək yollar axtaran ata-anaları, baba-nənələri, müəllim-tərbiyəçiləri sənətkar öz əsərlərində mahir ustalıqla təsvir edir, onların yaddaqalan maraqlı surətlərini yaradırdı. Ədib tərbiyə məsələlərində quru nəsihətçiliyə uymamağa çalışır, həyati müşahidələrə, həssas müəllim-yazıçı duyğu və düşüncələrinə əsaslanırdı. Bu diqqətə layiq səbəbi də qələmə aldığı əsərlərində fikirlə hissin, əqllə emosiyanın, bədii təfəkkürlə elmi mülahizənin, yazıçılıqla müəllimlik məharətinin vəhdətinə nail olmasıdır. Ədib ümumiyyətlə, tərbiyə-əxlaq probleminə dair elə mövzular seçib, elə hadisə və surətlər qələmə alırdı ki, onlar oxucunu düşündürüb, düzgün istiqamətləndirir, məhəbbət və nifrət duyğularını ortaya çıxarırdı.

Mir Cəlalın bir sıra hekayələrində realizmi baxımından səthilik də var. Amma ədib hər zaman çalışırdı ki, hadisə və əhvalatlarda dərinə nüfuz etsin, ziddiyyətləri təmiz, sadə və aydın dildə yazsın. Sənətin işarə və simvollarla danışmaq səlahiyyətini də unutmurdu. Mir Cəlal öz əsərlərində uzunçuluğa, sözçülüyə yer vermir, əsərlərini yığcam, konkret və təbii dillə yazırdı. Onun üslub xüsusiyyəti belə idi. O, bütün bunları başqalarına da tövsiyə edir, öyrədir, müzakirə və redaktə zamanı köməyini əsirgəmirdi. Təsadüfi deyil ki, akademik Məmməd Arif Mir Cəlalın əsərlərindən aldığı xoş, güclü, unudulmaz təəssüratın başlıca səbəbini, hər şeydən əvvəl, onun üslubundakı səmimiyyət, sadəlik və təbiiliklə bağlayır, bu cəhəti ən yaxşı yazıçılara xas keyfiyyət kimi yüksək qiymətləndirirdi. Bu da təsadüfi deyil ki, Mir Cəlal hekayələrindən birində kiçik məclis üzvləri arasında mühüm həyat probleminə dair yaranmış müzakirələri qocaman müəllimin dili ilə sonlandırır, ürəkdəki sözləri cəsarətlə, açıq-aydın deyə bilməyi dünyadakı ən böyük xoşbəxtliklərdən sayır, son dərəcə aktual səslənən düşündürücü, geniş mənalı nəticəyə gəlirdi: "Məncə bütün ölkələr, xalqlar, dövlətlər, başçılar öz vətəndaşlarına bu böyük və çox nadir neməti bəxş etsələr, dünyada zülm, kədər yox olar, ədalət bərpa olar, yer üzü işıqlanar, cənnətə dönər, insanlar "yüngülləşər", gözəlləşər, mələyə dönər!”

Təvazökarlıqdan kənara çıxaraq lovğalanan tələbələrə Mir Cəlal ibrətli və faydalı tövsiyələr də verirdi: - Bəzi cavanlar bir əsər yazmağa, bir tədqiqat aparmağa başlayan kimi sinəsini irəli vərərək deyir: - Bu elm sahəsi məndən başlanır, onun ilk təməlini mən qoyuram. Bu, çox pis xasiyyətdir. Qardaş, birdəfəlik bilin ki, heç nə sizdən, nə də məndən başlanır. Ədəbiyyatşünaslığın hansı sahəsini götürsəniz, görərsiniz ki, bizdən əvvəl yaşamış kişilər hər şeyi demişlər, tədqiq etmişlər, bizimki olsa-olsa ümmana bir damla əlavədir. Məsələn, elə Aristoteli xatırlayın. Ədəbiyyat nəzəriyyəsi sahəsində onun dediklərinə bir neçə əsrlər ərzində bəşəriyyət çoxmu əlavə etmişdir? Əlbəttə, yox!

Mir Cəlal zəngin bir ədəbi irs qoyub getdi. Elə bir irs ki, öyrənməli, nümunə götürməli, davam və inkişaf etdirməli cəhətləri vardır. Elə bir irs ki, onda dərin realizm gücünə malik bədii nümunələr, klassik və müasir mənəvi sərvətlərə, ədəbiyyat tarixi və nəzəriyyəsinə dair maraqlı tədqiqlər, məqalələr, fıkirlər mövcuddur. Bütün bunlar onu göstərir ki, Mir Cəlal zəngin mirasa malik olan yaradıcı şəxsiyyət kimi milli

ədəbiyyatımız, elm və mədəniyyətimiz tarixində yaşamağa layiqdir. O, ad və şöhrət ardınca qaçmamış sənətkardır. Xalqına xidmət idealına arxalanaraq təbiətinə uyğun sadəlik və təmkinlə işlədi, yazıb yaratdı və xatirələrdə əbədiləşdi.

**Tədqiqatın obyekti.** Tədqiqatın başlıca obyektini görkəmli Azərbaycan yazıçısı, böyük ədib Mir Cəlal yaradıcılığında lirik və satirik hekayələrin tədrisi üsulları təşkil edir. Bu cəhətdən ədibin lirik və satirik hekayələrinin təhlili, yeni təlim metodlarından istifadə edərək hekayələrin tədris olunma məsələlərinə toxunulub. Onların ali və orta məktəbdə necə tədris edilmə məsələlərinə, hekayələrinin təhlilinə geniş yer verilib.

**Tədqiqatın predmeti.** Dissertasiyamızın predmeti Mir Cəlal yaradıcılığında lirik və satirik hekayələrin tədrisi üsulları ilə bağlı olan məsələlərdir. Hekayələrin yeni təlim metodları ilə tədrisi üsulları tədqiqatın əsasını təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlalın lirik və satirik hekayələrin mövzu rəngarəngliyini, hekayələrində toxunmuş olduğu icitimai-siyası məsələləri, lirik hekayələrinin mövzu dairəsi, satirik hekayələrində təndiq hədəfinə çevrilmiş məsələlər, lirik hekayələrin tədris üsulları, satirik hekayələrin tədris üsulları məsələlərini araşdırmaqdır.

Araşdırmamızın yazılma məqsədlərinə nail olmaq üçün daha çox hekayələrin tədrisi məsələlərinin tədqiq edilməsinə üstünlük verilmiş və bu vəzifələrin yerinə yetirlmisə nəzərdə tutulmuşdur.

- Mir Cəlal yaradıcılığında lirik və satirik hekayələrin tədrisi məsələləri müəyyənləşdirmək və ədibin hekayələrinin tədrisi üsulları haqqında fikir yaratmaq;
- Dövrünün ictimai-siyasi proseslərinin Mir Cəlal yaradıcılığına təsirini müəyyənləşdirmək;
- Mir Cəlal hekayələrinin mövzu və ideyasını aydınlaşdırmaq;
- Orta məktəbdə Mir Cəlalın hekayələrinin tədrisi yollarını araşdırmaqdır.

**Tədqiqatın metodları.** Tədqiqat işimizdə təsviri, müqayisə metodları eyni zamanda isə tarixilik prinsipi rəhbər tutularaq, tipoloji-müqayisəli təhlil metodları əsasında aparılmışdır.

**Tədqiqatın mənbələri.** Tədqiqat işində Mir Cəlalın həyat və yaradıcılığına həsr olunan kitab, məqalə və monoqrafiyalardan istifadə edilmişdir. Metodika sahəsinə aid nəşr olunan yeni kitablar, məqalələr, jurnallara istinad olunmuşdur. Dissertasiya işində nəzəri metodoloji və metodika kitablarından, ədəbiyyatın tədrisi , eyni zamanda Mir Cəlal Paşayev yaradıcılığı barədə görkəmli alim və şəxsiyyətlərin əsərlərində istifadə üstünlük təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Mir Cəlalın lirik və satirik hekayələrin tədrisi məsələsi sistemli şəkildə tədqiq olunmamışdır. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, burada Mir Cəlal hekayələrinin fəal/interaktiv təlim üsulları ilə tədrisi məsələsi ilk dəfə magistr dissertasiyası səviyyəsində sistemli şəkildə, müəyyən ardıcıllıqla araşdırılmış və dəyərləndirilmişdir.

Mir Cəlal hekayələrinin fəal interaktiv təlim metodları tədrisinə ilk dəfə toxunulmuşdur. Sistemli şəkildə həm lirik hekayələrin tədrisi məsələləri, həm də satirik hekayələrin tədrisi məsələləri ayrılıqda araşdırılmışdır.

**Dissertasiyanın elmi-nəzəri və praktik əhəmiyyəti.** Mir Cəlal hekayələri ilk dəfə fəal/interaktiv təlim üsulları ilə tədrisi araşdırılmışdır. Hekayələrin tədrisində yeni təlim texnologiyalarından istifadə edilmişdir.

Dissertasiya işi ilk növbədə metodika üçün xüsusi əhəmiyyətə malikdir. Bu dissertasiyadan ali və orta məktəblərdə müəllimlər dərs vəsaiti kimi istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dillər Univeristeti Magistratura və Doktorantura fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında hazırlanmışdır. Dissertasiya ilə əlaqəli iki məqalə çap edilmişdir. "Mir Cəlal yaradıcılığında hekayə" adlı birinci məqalə və "Mir Cəlalın "Bostan oğrusu" hekayəsinin tədrisi üsulları" adlı ikinci məqalə elmi jurnallarda çap olunmuşdur.

**Tədqiqatın suturukturu və məzmunu.** Dissertasiya mündəricat, giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# İŞİN MƏZMUNU

"Mir Cəlalın lirik və satirik hekayələrinin tədrisi üsulları" adlı dissertasiya işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Eyni zamanda I fəsil iki yarımfəsildən, II fəsil iki yarımfəsildən və III fəsil üç yarımfəsildən ibarətdir.

"Mir Cəlal yaradıcılığında hekayə janrına ümumi baxış" adlanan birinci fəsil iki yarımfəslidən ibarətdir. Bu fəslin "Azərbaycan ədəbiyyatında hekayəçilik ənənələri" adlı birinci yarımfəslində hekayə janrının ənənələri, realist nəsrin yaradıcı və davamçılarından, onların əsərlərinin mövzu rəngarəngliklərindən bəhs edilmiş, həmin dövr ədəbi proseslərin ədəbiyyata, yaradıcılara təsirindən geniş və əhatəli şəkildə araşdırılmışdır.

"Mir Cəlal Azərbaycan ədəbiyyatında hekayə ənənəçiliyinin davamçısı kimi" adlanan ikinci yarımfəsildə Mir Cəlal digər ədiblər ilə qarşılaşdırılaraq tədqiq edilmişdir. Bu yarımfəsildə Azərbaycan ədəbiyyatında hekayə janrının yaradıcıları kimi ədəbiyyatda öz sözünü layiqincə deyən Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev kimi sənətkarların Mir Cəlal dünyagörüşünə təsiri, bu təsirin nəticəsində satirik hekayə janrının ustadı olan Mir Cəlal fenomeninin yaranmasına gətirib çıxarmasından söhbət açılmışdır.

II fəsil " Mir Cəlal lirik və satirik hekayələrin böyük ustadıdır" adlanır. Bu fəsil eyni zamanda özündə iki yarımfəsili ehtiva edir. Birinci yarımfəsil "Mir Cəlalın lirik hekayələri" adlanır, burada lirik hekayələr ustası olan Mir Cəlal yaradıcılığındakı lirik hekayələr pedaqoji-metodiki əhəmiyyəti baxımından təhlil olunur, lirik hekayələrinin ədibin şəxsi yaradıcılığı ilə, psixologiyası ilə uyğun olub-olmaması öz əksini tapmışdır.

"Mir Cəlal yaradıcılığında satirik hekayələr" adlanan ikinci yarımfəsildə Mir Cəlalın satirik hekayə ustası olması özünü aydın şəkildə büruzə verir. Ədibin satirik hekayələrinin sərlövhələrinin satirik planda verilməsi də yazıçının pedaqoji ustalığından xəbər verirdi.

"Mir Cəlal hekayələrinin tədrisi üsulları" adlanan üçüncü fəsil özündə üç yarımfəsili birləşdirir. Birinci yarımfəsil "Mir Cəlalın lirik hekayələrin tədrisi üsulları" adlanır. Burada kurrikulum proqramının əsasını təşkil edən fəal/interaktiv təlim metodları vasitəsilə ədibin lirik hekayələrinin tədrisi üsulları öz əksini tapmışdır.

“Mir Cəlalın satirik hekayələrinin tədrisi üsulları” ikinci yarımfəsildir. Burada da fəal/interaktiv təlim üsullarının satirik hekayələrində inikas olunmasından geniş bəhs olunmuşdur.

“Orta məktəbdə Mir Cəlal hekayələrinin yeni təlim metodları ilə tədrisi” adlanan sonuncu yəni, üçüncü yarımfəsildə isə kurrikulum proqramının təlim texnikalarının əsasını təşkil edən təlim metodlarına əsasən Mir Cəlalın hekayələrinin orta məktəblərdə tədrisi forma və üsullarından bəhs olunur. Fəal/interaktiv təlim metodlarından olan BİBÖ, klaster, karusel, Beyin həmləsi, Venn diaqramı, akvarium, auksion və s. vasitəsilə ədibin yaradıcılığının əsasını təşkil edən hekayələr, xüsusilə də satirik və lirik hekayələrin orta məktəbdə necə tədris olunmasından geniş bəhs olunur.

# I FƏSİL

## Mir Cəlal yaradıcılığında hekayə janrına ümumi baxış

### 1.1.Azərbaycan ədəbiyyatinda hekayəçilik ənənələrinə dair

Azərbaycan realist nəsrinin yaradıcısı Mirzə Fətəli Axundov olmuşdur. Bu böyük sənətkarın sayəsində Azərbaycan ədəbiyyatı yeni və yüksək inkişaf mərhələsinə qalxmışdır. M.F.Axundov hekayə və ədəbi tənqid kimi yeni janrları ədəbiyyata gətirməklə qalmamış, bu janrlarda gözəl ədəbiyyat nümunələri yaratmışdır.

M.F.Axundov məhşur "Aldanmış kəvakib" povesti ilə ədəbiyyatda realist bədii nəsrin əsasını qoymuşdur. Doğrudur, ədəbiyyatımızda Axundova kimi də nəsr əsərləri yazılmışdır. Lakin realist bədii nəsrin ilk nümunəsini M. F. Axundov yaratmışdır.

XIX əsr bədii nəsrimiz haqqında qiymətli tədqiqat aparmış ədəbiyyatşünas H. Əfəndiyev belə nəticə çıxarır ki, "Azərbaycanda realist və satirik nəsrin bünövrəsini qoymaqla M. F. Axundov ədəbiyyatımız üçün böyük bir tarixi xidmət göstərmişdir. Öz nəsr yaradıcılığı ilə yeni realist nəsrin parlaq nümunələrini yaradaraq bu janrın gələcək inkişaf yollarını müəyyən etmişdir. XIX əsrin sonunda və XX əsrin əvvəllərində yaranmış Azərbaycan bədii nəsri, bilavasitə Axundov nəsrinin realistik ənənələri əsasında yetişmişdir." [22,5]

M. F. Axundov ənənələrini onun xələfləri- C.Məmmədquluzadə, Ə. Haqverdiyev, S. S. Axundov və başqaları davam və inkişaf etdirmişlər. Bu yazıçılar öz əsərlərində sələfləri tərəfindən əsası qoyulmuş realist nəsri daha da inkişaf etdirə bilmişlər. Onlar nəsrimizi yalnız mövzu cəhətdən deyil, forma cəhətdən də inkişaf etirərək roman, hekayə, feylaton və s. növlərində ilk nümunələr yaratmışlar.

Cəlil Məmmədquluzadə nəsrinin də yaranması Axundovun adı ilə bağlıdır. Onun kiçik hekayə ustası kimi fəaliyyətinə Axundov ənənələrinin böyük təsiri olmuşdur.

Hekayə janrı yazıçının həyatında ən mühüm yeri tutmuşdur. Yazmış olduğu hekayələr də onun ədəbi məharətini aydın göstərmişdir. Buna görə də, haqlı olaraq Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustası adlandırılır.

Cəlil Məmmədquluzadə realist bir sənətkardır. O öz hekayələrində tələsmədən, böyük bir soyuqqanlılıqla həyatı dərindən qələmə alır. O nifrət və qəzəbini süni təsvirlərlə deyil, həyatı və insanları olduğu kimi öz hekayələrində təsvir etməklə bildirir. O, heç vaxt suni hekayələr yazmamışdır. Onun təsvir etmiş olduğu həyatın içində kədər, ümidsizlik, gülünc facianə vəziyyət yoxdur.

Əlbətdə bu mövzular təsadüfi seçilən mövzular deyildi. Bir tərəfdən humanizm və azadlıq ideyaları, digər tərəfdən isə ədibin dünyagörüşü ilə sıx bağlı idi. Hekayələrin digər bir əsas oxşar birləşmə səbəbi isə xəlqilikdir. Müəllif zəhmətkeş insanlara yüksək rəğbət bəsləyir, əhalinin ağır şəraitdə həyat sürmələrinin qarşısını almağa çalışır, zülmün kökünün nə olduğunu axtarır. Hekayələrin əsas müsbət qəhramanları zəhmətkeş xalq içərisindən çıxmış sadə adamlardır. Bu qəhrəmanlar öz ürək saflığı, mənəvi yüksəklikləri ilə seçilən adamlardır.

Bununla belə, Cəlil Məmmədquluzadə hekayələrində təkrara yol vermə halları olmur. Ədib gündəlik həyatda gördüyü hadisələrə hər zaman fərqli donlar geydirərək oxucusuna təqdim etməyi bacarmışdır.

Ədibin bütün nəsr əsərləri üçün səciyyəvi olan xüsüsiyyətlərdən biri də lakonizmdir. Bu o deməkdir ki, ədib öz əsərlərində az sözlə böyük fikir ifadə edir. Cəlil Məmmədquluzadə nəsrindəki yığcamlığın əsas səbəbi odur ki, obrazın mənəvi həyatını, psixologiyasını geniş təsvir etmədən onun arzu və istəklərini, hiss və həyəcanlarını göstərə bilir. Qəhrəmanın daxili hisslərini dəqiq və düzgün verir.

Cəlil Məmməquluzadənin nəsr əsərlərinin mövzu dairəsi müxtəlif və rəngarəndir. Onun hekayələrinin hər birinin özünəməxsus mövzusu və qəhrəmanlar aləmi var. Lakin bu hekayələri birləşdirən cəhətlər də mövcuddur. Bu hekayələrin mövzu dairəsi gündəlik həyatdan götürülmüşdür. Cəlil Məmmədquluzadə əsərlərində nə boş xəyallara, nə əfsanəvi qəhrəmanlara, qeyri-adi hadisələrə təsadüf edilmir. Burada təsvir olunan həyatın ümumiliyi hekayələrin ideya-məzmun oxşarlığına aiddir.

Ədib hekayələrində zamanın, ictimai həyatın daha mühim məsələlərinə toxunur. İlk nəsr əsərlərində yazıçı daha çox kənd və kəndli həyatından, bəylərin, xanların zülmlərindən yazmışdır. Lakin 1905-1920-ci illərdə müəllif öz hekayələri üçün fəhlə

həyatından da mövzu seçir. O yazıçılıq müşahidələrini xeyli inkişaf etdirərək əli qabar olmuş, günəmüzd işləmiş olan Azərbaycan zəhmətkeşlərin həyatı barədə yazmağa başlamışdır. Bu illərdə ədibi ən çox düşündürən məsələ ictimai-siyası məsələlərə aydın münasibət bəsləyə bilməyən sıravi zəhmetkeş adamlar olur. Cəlil Məmmədquluzadənin fəhlə mövzusuna həsr etdiyi əsərlər içərisində “Usta Zeynal” və “İranda hürriyyət” mühüm yer tutur. Bu hekayələri yalnız dini mövhumatın, avamlığın ifşası kimi qəbul etməməli, ictimai-siyasi ideyaları özündə əks etdirən əsər kimi baxılmalıdır.

Cəlil Məmmədquluzadənin 1905-ci ildən sonra yazmış olduğu hekayələrdə əsas məsələrdən biri də İran və Cənubi Azərbaycan mövzusudur. O, İranda demokratik hərəkətin başladığı vaxt bu məsələlərə toxunmuşdur.

İlk nəsr əsərlərində olduğu kimi Cəlil Məmmədquluzadə sonrakı əsərlərində də fikri Azərbaycan bəy və mülkadarlarının ifşasına yönəltmişdir. Bu mövzuya həsr olunmuş ən yaxşı hekayələr “Qurbanəli bəy” və “Quzu” hekayələridir.

1905-1920-ci illərdə ədib qələmə almış olduğu hekayələrdə ən çox işlənən mövzulardan biri də qadın əsarətinə qarşı mübarizə məsələsidir. Yazıçının bir çox hekayələri ya dolayı yolla, ya da birbaşa bu mövzuya aiddir.

Feodal patriarxal münasibətlərin hökm sürdüyü müsəlman aləmində qadın kişinin quludur. Onu almaq, satmaq, hətta öldürmək belə mümkündür. O, heç nəyə ehtiraz edə bilməz, səsini belə çıxara bilməz. Qadınların məruz qalmış olduğu bu münasibət hümanist yazıçını çox düşündürmüş, əlinə qələm aldığı ilk gündən son günə kimi bu məsələyə etinasız qala bilməmişdir.

Qadın əsarətinə qarşı mübarizə mövzusu “Xanın təsbehi”, “Konsulun arvadı”, “Pirverdinin xoruzu”, “Qəssab” və s. hekayələrində sənətkarlıq məharəti ilə işlənmişdir. Bu hekayələrin bəzilərində əsas məsələ o götürülməmiş olsa da, bir qırmızı xətt kimi keçmişdir. Bu o demək deyil ki, bu mövzu ədib üçün ötəri məsələdir, bu onun həllini tapmağa çalışdığı ən əsas məsələlərdəndir.

Ədibin hekayələrində tənqid hədəfi olmuş başqa bir məsələ isə din və şəriətin uydurduğu siğə məsələsidir. Bu məsələyə Cəlil Məmmədquluzadənin “Pirverdinin xoruzu”, “İranda hürriyyət”, “Xanın təsbehi” və s. hekayələrdə toxunmuşdur. Bu

hekayələrdə ruhanilərin uydurduqları şiğə fırıldaqları, kəbin və talaq oyunu ilə qadınları çıxılmaz vəziyyətə salanlar tənqid olunmuşdurlar.

Cəlil Məmmədquluzadəni gənc nəslin təlim və tərbiyəsi hər zaman düşündürən ciddi məsələlərdən olmuşdur. Ailədə uşağın tərbiyəsinə dönə-dönə toxunan ədib əsərlərinin çoxunda, məsələn “Saqqallı uşaq”, “Oğru inək”, “İki alma”, “Buz” və s. kimi hekayələrində bu məsələni qələmə almışdır.

Cəlil Məmmədquluzadə bu hekayələrində bildirir ki, uşaq şəxsiyyətinin inkişafına və formalaşmasına ictimai mühitin, ailə həyatının böyük təsiri olur. O, tərbiyəyə aid fikirlərini iki hissəyə ayırır. Bunlardan biri oğruluq, qorxaqlıq, riyakarlıq, xəbislik və s. çirkin cəhətlərin ifşası,  digər cəhət isə tərbiyənin müsbət cəhətlərinin təsiri olan cəsarət, dürüstlük, sədaqət və s. humanizm ideyalarının təbliği məsələsidir.

Ədib yazmış olduğu hekayələrdə uşağın tipik sürətini verərək, hansı ailəyə mənsub olduğunu, ictimai mühitin onların xarakterlərinə nə kimi təsiri etdiyini aydın göstərir. Ədib bu cür hekayələrində nəsihətçiliyə yol vermədən, həyati hadisələr əsasında yaradılmış sujetdən istifadə etmişdir. Müəllif “Saqqalı uşaq”, “İki alma” hekayələrində uşaqların tərbiyəsinin əsasının ailə olduğunu göstərərək nəsihət vermir, bu məsələni maraqlı bir sujet daxilində oxucuya çatdırır.

Cəlil Məmmədquluzadənin hekayələri yalnız məzmun,ideya istiqaməti cəhətdən deyil, bədii sənətkarlıq məsələləri nöqteyi-nəzərindən də diqqəti cəlb edir. Nasir C. Məmmədquluzadənin sənətkarlığı müəyyən dərəcədə  XIX əsr realist Azərbaycan ədəbiyyatının qanunauyğun inkişafının yeni, yüksək mərhələsi idi. ədib istər mövzu, problem, istərsə də bədii ustalıq, dil cəhətdən klassik ədəbiyyatımızın ən yaxşı ənənələrini seçir, cilalayır və inkişaf etdirirdi. Satirik ideyaların və tipləşmənin dərinliyi, məişət materiallarının siyasi cəhətdən mənalandırılması, kəskin dramatizmin qüvvətli, şən yumorla birləşməsi bədii, formanın kamilliyi və zənginliyi Cəlil Məmmədquluzadə nəsrinin əsas məziyyətlərindəndir. [37,101]

Cəlil Məmmədquluzadə öz hekayələrində cəmiyyətin hər bir sinfini təmsil edən obrazlar yaratmışdır. Ədibin yaratdığı obrazlar real obrazlardır. Müəllif bu obrazları xalqın içərisindən seçərək səciyyələndirir və konkret bədii obraz yaradır. Ayrı-ayrı

hadisələr özlüyündə sənət əsəri yaratmadıqları kimi, tək-tək adamlar da kamil tipik obrazlar yaratmağa əsas vermir. Yaradılmış obrazlar ədibin dərin müşahidələrinin, düşüncələrinin nəticəsidir.

Cəlil Məmmədquluzadə hətta portret ustasıdır. O, az sözlə obrazın zahiri görkəminin təsvirində onun psixologiyasını mahir ustalıqla açır. Ədib portretə böyük əhəmiyyət vermiş və öz əsərlərində bir çox maraqlı portretlər yaratmışdır. Onun yaratmış olduğu portretlər rəngarəngdir. Cəlil Məmmədquluzadənin bədii nəsrinə xas olan həyatı həqiqi bədii lövhələrlə əks etdirmək portretləri üçün də önəmlidir.

Nəsr yaradıcılığı ədəbiyyatımızda mühüm  yer tutan digər görkəmli ədibimiz Əbdürrəhim bəy Haqverdiyevdir. Ədibin yazmış olduğu hekayələr mövzuca rəngarəng və müxtəlifdir. Hekayələrinin bir qismində çar hökümətinin satqın, ikiüzlü, riyakar xanları, bəyləri tənqid olunmuşdur. Bu mövzu ədibin "Odabaşının hekayəsi", "Qaban", "Diş ağrısı", "Mirzə Səfər", "Çeşmək" hekayələrində öz əksini tapmaqdadır.

Burjua-mülkadar cəmiyyətinin ayrı-ayrı nöqsanlarını ədib hekayələrində gülüşdən istifadə edərək tənqid edir. ədib bəzi hekayələrdə gülüş yaratsa da, bu gülüşün arxasında göz yaşları dayanır.

Ədibin hekayələrinin digər əsas mövzularından biri də mövhumatın tənqididir. "Cəhənnəm məktubları", "Mozalan bəyin səyahətnaməsi", "Marallarım" hekayələrində müəllif cəhalət və mövhumatı, xalqın ruhunu zəhərləyənləri tənqid hədəfinə çevirmişdir.

Ə. Haqverdiyev povest və hekayələrində ictimai ədalətsizliyi tənqid edir. Ədalətsizlik üzərində qurulmuş idarəni və bu idarənin nümayəndələrini, pristavları, jandarm rəisləri, qorodovoyları onların münasibətlərindəki saxtakarlıqları ifşa etmişdir.

Müəllif eyni xasiyyətli, eyni təbəqəyə mənsub olan adamların bir çoxunu öyrənib onların əsas xüsusiyyətlərini bir nəfər üzərində ümumiləşdirib tipik surətlərini yaradır. O yazır: "Mən gələn məqalələrimdə heç maralımın adını yazmayacağam, çünki hər maralım öz-özünü tanıdacaq. Qarelər üçün bu adların bir elə əhəmiyyəti yoxdur; maralın adı istəyir, Rəməzan, istəyir Şəban, istəyir Səfər, istəyir Rəcəb olsun, qare üçün bir təfavüt etməz. Ancaq maral olsun. Bu maralın adı hərçənd Qasım əmidir, amma Qasım əmi bir maral

deyil. Neçə yüz, bəlkə neçə min maralı yığıb, bir yerdə yoğurub içindən bir maral çıxarıb adını Qasım əmi qoymuşam”[45]

Haqverdiyevin “Marallarım” sərlövhəsiylə çap etdirdiyi hekayələr “Cəhənnəm məktubları”nı tamamlayır. Hekayələrdə “cəhənnəmdə” cəza çəkənlərin oraya “getməzdən” əvvəl dünyada gördüyü işlər təsvir və ifşa olunur. “Marallarım” kimlərdir? Ədib özü bu suala belə cavab verir: “Şükür olsun Allaha, Yer üzündə mənim marallarımın hesabı üç yüz milyona çatıb. Gedərsən İrana, Hindistana, Türküstana, Ərəbistana, Buxaraya, Əfqanıstana, İrəvana, Naxçıvana, Qarabağa, Lənkərana, Salyana, Bakıya, Batuma, Dərbəndə, Dağıstana... hər yer mənim marallarımla doludur. Gözəl marallarım, qotur, bitli marallarım, başları qapazlı marallarım, üzləri tüpürcəkli marallarım”. [14,20]

Hekayələrdə diqqəti cəlb edən xüsusiyyətlərdən biri hayişələrdir. Hayişələr ədibin demək istədiyi fikirləri aydınlaşdıraraq təsir gücünü artırır. Hayişələr də hekayənin özü kimi maraqla oxunur. Məsələn, şəhər evlərinin quruluşu, inqilabdan əvvəlki teatrın vəziyyəti, adət-ənənələr, işlənmiş olan fırıldaqlar haqqında məlumatlar verilir. “Pir”, “Seyidlər ocağı”, “Qiraət”, “Cəhənnəm məktubları” hekayələri bu cür hekayələrdəndir.

Bir çox müasirlərinin yaradıcılığında olduğu kimi, Ə. Haqverdiyevin hekayələrində də təlim-tərbiyə məsələləri öz əksini tapmışdır. “Şikayət” hekayəsi bu mövzuya aid hekayələrdəndir. Bu hekayədə vəzifəsini pul, qazanc mənbəyi görən, tipin öz sözü ilə desək “başını girləyən “uçitel” , Mirzə Səttarın “Gedirəm dərsi gətirməyə!” sözlərini uşaqlar və şagirdlər əzbər bilir. Bu sözlərlə uşaqları aldadan Mirzə Səttar qapı-qapı düşərək sülənir.

1915-ci ildə ədibin çap etdirdiyi “Şeyx Şəban” hekayəsi realist Azərbaycan nəsrinin ən parlaq nümunələrindən biridir. Bu hekayədə yaddan çıxmayan səhnələrlə “kiçik” insan faciələri, onları şikəst vəziyyətə salan köhnə cəmiyyət tənqid hədəfinə tutulur. Şeyx Şəban mülkədar-burjua cəmiyyətində başını itirən minlərlə insanlardan biridir. O, həyatı üçün cilddən-cildə girir, oğru-quldur olur, həbsxanaya düşür. Sonda mövhumatın təsiri ilə azançı olur ,şeyx ləqəbi alır və sonda bu mənasiz həyatla vidalaşır. “Şeyx Şəban” hekayəsi bir aynadır. Bu aynada Azərbaycanın ticarət şəhəri üçün səciyyəvi olan bir çox səhnələr və insanlar əksini tapmışdır.

Bu əsər öz quruluşu etibarilə orijinal əsərdir. Hekayədə sujet və kompozisiya bacarıqla qurulmuşdur. Kompazisiya ustası olan Haqverdiyev hekayələrindəki hadisələr müstəqim yolla inkişaf edir. "Ayın şahidliyi", "Pir", "Bomba", "Tənqid", "Çeşmə" və s. bu qəbildən olan hekayələrdir. Digər bir tərəfdən isə hekayələrdəki hadisələr iki xətlə, paralel davam etdirilir. "Odabaşının hekayəsi", "Koroğlu" hekayələri bu hekayələrdəndir. Ya da qeyri-müstəqim xətt üzrə inkişaf edir. Burada hadisənin ortası sonluqda, sonluq əvvəldə verilə bilər. Buraya isə "Ata və oğul", "Şəbih", "Şeyx Şəban" və s. hekayələr daxildir.

Cəlil Məmmədquluzadə yaradıcılığında olduğu kimi Haqverdiyev hekayələrinin də təsvir və surətlərin reallığı, yığcamlıq, lakonizm əsas xüsusiyyətlərdəndir. Bir neçə hekayənin mövzusu nağıl və lətifələrdən alınmışdır. Lakin onlar ədibin öz yaradıcı təxəyyülü əsasında işlənib, tamamilə orijinal bədii əsər halına düşmüşdür. Ədib nağıl və lətifələrdən istifadə edərək "Cəhənnəm məktubları", "Seyidlər ocağı", "Pir", "Şəbih", "Dəccəlabad" adlı hekayələri yazmışdır. Bu hekayələrdə başlama tərzindən, gözlənilməz nəticə ilə bitməsindən məharətlə istifadə edilib. Bu da hekayənin formaca daha mükəmməl olmasına gətirib çıxarır. Bu zaman hekayə müasir ruhda olur və həqiqi həyatın inikası təsirini bağışlayır.

Əbdürrəhim bəy Haqverdiyev nəsr yaradıcılığını davam və inkişaf etdirərək sovet dövründə də "Marallarım" silsiləsindən hekayələr yazmışdır. Bu hekayələr mövzuca bir-birlərindən fərqlənir. Hekayələrin bir qismində çar hakimiyyəti dövründə yaşayan satqın, yaltaq, ikiüzlü bəylər, xanlar və polis məmurlarının acgözlüyü tənqid hədəfinə çevrilir. "Odabaşının hekayəsi", "Çeşmək","Mirzə Səfər", "Pristav və oğru", "It oyunu", "Diş ağrısı", "Qaban" və s. bu cür hekayələrdəndir.

Əbdürrəhim bəy Haqverdiyev, yaradıcılığının ikinci dövründə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir kimi inqilabçı-demokrat sənətkarlarla bir addımlamış, XX əsr ədəbiyyatının ən qüdrətli sənətkarlarından biri kimi tanınmışdır.

## 1.2. Mir Cəlal Azərbaycan ədəbiyyatında hekayəçilik ənənələrinin davamçısı kimi

Azərbaycan yazıçıları içərisində yaradıcılığında mövzu rəngarənliyi, üslub xüsusiyyətləri və orijinallığı ilə Mir Cəlal Paşayev özunəməxsus yer tutur. O, Azərbaycan ədəbiyyatı tarixində rəngarəng mövzulara həsr edilmiş romanlar müəllifi, gözəl hekayələr ustası, ədəbiyyatımızın müxtəlif dövrlərindəki problemlərə həsr etdiyi onlarla tədqiqat əsərlərinin müəllifi olmuşdur. Bədii ədəbiyyatın müxtəlif janrlarında qələmini sınayan Mir Cəlalın yaradıcılığında hekayə janrı xüsusi yerə malikdir. O, Azərbaycan nasirləri içərisində ən çox hekayəçi kimi tanınmışdır.

Nasir öz hekayələrində həyatın dərin qatlarına enmiş və hadisələrin daxili mahiyyətini açmağa çalışmışdır. Onun yaradıcılığı sadəlik, təbiilik, səmimilik cəhətdən hər zaman seçilir.

Mir Cəlal özündən əvvəlki klassik nəsr ənənələrinə qırılmaz tellərlə bağlı yazıçıdır. Bu ənənə M. F. Axundovla başlayan C. Məmmədquluzadə, Ə. Haqverdiyev nəsri ilə zirvələrə çatan tənqidi-realizm və realizm ədəbi məktəblərinin zəngin xəzinəsində qaynaqlanır.

Mir Cəlal hekayələrində Cəlil Məmmədquluzadədən, Əbdürrəhim bəy Haqverdiyevdən yaradıcı şəkildə bəhrələnmişdir. Mir Cəlal klassik nəsrimizdən dilin dəqiqliyi, sadəliyi, əlvan və rəngarəng xalq ifadələrinin bolluğu, əsərlərində təsvir və ifadə vasitələrindən istifadə etməyi öyrənmişdir.

Mir Cəlal bədii nəsrində əks etdirdiyi hadisələrə Mirzə Cəlil və Haqverdiyev hekayələrinə məxsus "obyektiv, şirin, mülayim bir nağıl üsulu", "təsvir olunan əhvalat həqiqi həyatda baş vermiş bir hadisə " kimi yanaşmışdır. Bu söylənilən bu xüsusiyyətlərin hər biri Mir Cəlalın hekayələrində mühüm yer tutur. Onun Mirzə Cəlilin hekayələri haqqında söylədiyi fikri elə müəyyən mənada özünün bəzi hekayələrinə də aid etmək olar: "Hekayəni (söhbət M.Cəlilin "Poçt qutusu"ndan gedir) oxuyandan sonra biz gözümüzü yumub, hekayədəki surətlərin səciyyəsini, mövzunun dərinliyini, əsərdəki həyəcanı təsvir edə bilərik. Bütün bunlar sözdə, zahiri şəkildə, təsvirdə yox, çox zaman kinoekranda insan

və hisslərin göstərildiyi kimi, məhz müstəqil Mir Cəlalın keçən əsrin otuzuncu illərində yazmış olduğu "Həkim Cinayətov", "Anket Anketov", "Mərkəz adamı" hekayələrində Mirzə Cəlil və Haqverdiyev ənənələrinin təsirini aydın şəkildə görürük.

Mir Cəlal hekayələrinin mövzusu rəngarəng, əhatə dairəsi isə genişdir. O, hekayəni öz yaradıcılığında müəyyən zamanla bağlamamış, onunla uzun zaman, davamlı məşğul olmuşdur. Bu cəhətdən özünün müasiri olan hekayəçilərdən seçilmişdir. Yazıçı hekayədə təsvir etdiyi həyatı müşahidə edir, eyni mövzuya təkrar baxır, mövzuda hələ kəşf edilməyən məsələləri aşkar edir.

Mir Cəlalın yaradıcılıq dünyası ilə tanış olduqdan sonra belə qənaətə gəlirik ki, onu düşündürən həyati məsələlərin klassik ənənələrə uyğun inkişafını və bu istiqamətdə yaranmış problemləri nəsr dilində aydın, qabarıq şəkildə verməyi bacarmışdır. Hansı ki, Sabiri oxuyanda şeirin, Mirzə Cəlili oxuyanda satira və yumorun gücünü duyuruqsa, Mir Cəlal hekayələrini oxuyanda da eyni hissləri yaşayırıq.

Mir Cəlal hekayələrinində dövrü üçün xarakterik olan məsələlər işlək deyil. Ədib hekayələrində insanın daxili aləminə nüfuz edir, insanın mənəvi dünyasına, insan gözəlliklərinə və eybəcərliklərinə diqqət edir. Bu hekayələrinin oynaqlığını şərtləndirən əsas cəhətlərdən biri də mövzu müxtəlifliyi, təhkiyə şirinliyi və lakonizmdir. Ədib ilk hekayələrində ancaq həyat və məişətin lövhəsini çəkir, hadisələri olduğu kimi göstərməyə çalışır, mühakiməni isə oxucunun azad ixtiyarına buraxır.

Mir Cəlal hekayələrinin janr xüsusiyyətləri və mövzular aləmi zəngindir. Ədibin hekayələrində həyatdan alınmış müxtəlif maraqlı mövzular, ailə-məişət motivləri, adi əhvalatlar, lirik, satirik, yumoristik mövzular öz ifadəsini tapmışdı. İnsanın tərbiyə olunması, ictimai münasibətləri və əxlaqi keyfiyyətləri hekayələri üçün əsas məsələlərdən biridir.

Mir Cəlal həyatın ayrı-ayrı sahələrinə müraciət edir, əhəmiyyətli mövzular tapır. O, müxtəlif yaş həddi olan insanların, müxtəlif peşə sahiblərinin surətini yaratmağa, onların nəcib məqsədlərini, arzu və əməllərini göstərməyə çalışır. Insanların sevincləri ilə bərabər onların kədərlərinə də öz əsərlərində toxunur. Ədib bu kədərin yanarma səbəblərini axtarır.

O, bu qənaətə gəlir ki, bu kədər insanda ruh düşgünlüyü yaradan kədər deyil. Bu kədər insanları mübarizəyə, düşmənə nifrətə yönləndirən kədərdir.

Ədibin bir sıra hekayələrində hadisə və əhvalatlar birinci şəxsin dilindən verilir. Bu təhkiyə üsulu hekayələri daha təbii edir. Yazıçı burada əsəri kənardan izləyən sıravi bir adam deyil, o burada hekayəyə yeri gəldikdə müdaxilə edə bilən canlı bir iştirakçıdır. C. Məmmədquluzadənin və Ə. Haqverdiyevin hekayələrində olduğu kimi yazıçı bir növ qəhrəman ilə oxucu arasında əlaqə yaradan şəxs rolunu oynayır. Mir Cəlal hekayələrində bəzən oxucuya müraciət edir. Bu ona görədir ki, yazıçı sanki bununla oxucunun diqqətini hekayədə baş verən hadisə və əhvəlatın mühüm hissəsinə çəkir. Yazıçı bəzən də oxucunu əsəri bərabər müşahidə etməyə çağırır. Mir Cəlal bu priyomla nitqdəki hiss və həyəcanı, lirizm və hərarətin yüksəlməsinə imkan yaradır.

Mir Cəlalın təhkiyəçiliyi bəzən bizə Haqverdiyev təhkiyəçiliyini xatırladır. Məsələn, "Desəm, onların ikisi də bir şəhərdə yaşayır, inanacaqsınız. Desəm, onlar bir evdə yaşayırlar heç inanmayacaqsınız. "Necə olar ki, bir yerdə yaşayasan və bir-birindən xəbərsiz olasan" deyəcəksiniz. Desəm, onlar ər-arvaddır, təəccüb edib deyəcəksiniz ki, "Nə danışır bu?".

Nəyə deyirsəniz and içim ki bu belədir"[43.340] – oxucuya belə müraciət edir.Mir Cəlal belə düşünür ki, "Biz klassiklərdən düzgün cümlə qurmağı deyil, bədii lövhə yaratmaq üçün onların xüsusiyyətlərini mənimsəməliyik".

Ədibin hekayələrində  yeniliyin köhnəliyə qarşı mübarizəsi, qələbəsi əsas leytmotiv idi. Bu dövr hekayələrlə tanış olduğumuz zaman nasirin mövzu əlvanlığına, fikirlər aləminin zənginliyinə diqqət yetirdiyini aydın görə bilərik. Mir Cəlalın gözündən tənbəl həkimlər, rüşvətxor savadsız müəllimlər yayına bilməmişdir, xalq malına göz dikən dələduzlar gülüş hədəfinə çevrilmişlər. Köhnəliyə qarşı çıxan yazıçı, bunları rüsvay edərək gülüş hədəfinə çevirmişdir. Ədib köhnəliyi tənqid edərək öz idealını əks etdirməyə, zəhmətkeş insanın xoşbəxtlik məsələsinə toxunmuşdur. Yazıçı insan xarakterində zahirən xoşagələn, lakin dərinə getdikdə çirkinlikləri üzə çıxan cəhətləri öyrənməyə çalışır.

Mir Cəlal köhnəliyi təmsil edən obrazlar haqqında başdansovdu, ötəri danışa bilməz. Müəllifin istifadə etmiş olduğu təhkiyənin sakitliyinə baxmayaraq, oxucunu əhvalat və hadisənin mahiyyətinə yönləndirə bilir.

Ədibin Böyük Vətən müharibəsi illərində qələmə almış olduğu hekayələr ədəbiyyatımız tarixində qəzəbli hekayələrdən sayılmışdır. Ilk öncə yazıçı vətən uğrunda çağırış məqsədli hekayələr yazsa da, daha sonradan düşmən üzərində qələbə meyli güclü təsir bağışlamışdır.

Mir Cəlalın hekayələrindəki dialoqların canlılığı, təhkiyədəki sadəlik, lirik ahənglə bərabər qısalıq, konkretlik də özünü göstərir. Bəzən qısalıq yazıçının yazmaq istədiyi dərin psixoloji anları, insan daxilindəki gərginliyi açmağa mane olur. Lakin lakonizim bəzən mənaları geniş vermək üçün şərait yaradır.

Mir Cəlalın istər lirik janrda yazılmış hekayələrində, istərsə də satirik və yumoristik hekayələrində insan şəxsiyyətini və ləyaqətini yüksək qiymətləndirir. Bununla belə müəllif yalnız insanın zahirində xoşa gələn cəhətlərdən yazmır, onun daxilinə enir. Insanda olan qüsura saymazyana yanaşmır, ona etinasız qalanmır və güzəştə getmir.

Böyük Vətən müharibəsi qələbəsindən sonra ədib yazmış olduğu hekayələrdə də yenə xalqın gündən günə yaxşılaşan həyatını böyük bir məhəbbətlə təsvir etmiş, tərəqqiyə mane olan köhnəliyə qarşı mübarizə aparmışdır. Bəzən isə kiçik hekayədə həm satirik, həm də lirik ünsüləri ustalıqla birləşdirə bilmişdir.

Ədibin yaradıcılıq yolunun mənbələrini müəyyən edərkən üş məqam qeyd etdik; bunlar klassik Şərq mədəniyyəti, o siradan qədim Şərq ədəbiyyatı, milli ədəbiyyat və rus dili vasitəsi ilə əxz edilən dünya ədəbiyyatı. Sırada ikinci yerdə göstərilməsinə baxmayaraq milli ədəbiyyatın, o cümlədən milli nəsrin təsiri öndə gəlməlidir. Çünki Mir Cəlal təpədən dırnağa milli yazıçıdır və Azərbaycan milli nəsrinin inkişaf yollarını incələyən həssas ədəbiyyatşünaslardan biridir. [19,69]

Mir Cəlal hekayələrinin əsli-kökü,bünovrəsi var. Bu yazıçının həqiqətən də parlaq istedadının, nəsrin tarixi tərcübəsinin, xalqdan gələn canlı həyatın üzərində dayanır.

Mir Cəlalın bədii nəsri ilə özündən sonra gələn bir neçə ədəbi nəsil arasında sıx əlaqə görürük. Sabir Əhmədli, Anar, Elçin, İsa Hüseynov, Aqil Abbas və başqa yazıçıların

əsərləri Mir Cəlal əsərləri ilə səsləşir. Onların hekayələrinin bədii üslubu, təhkiyəsi, xalq yumorundan istifadə aydın şəkildə özünü göstərir. Bunun səbəbi isə Mir Cəlal və adını çəkmiş olduğum sənətkarlar milli kökə bağlı olan sənətkarlardır. Mənbə isə Mirzə Cəlilin başçılıq etdiyi realist ədəbi məktəbdir.

Mir Cəlal keçmişlə gələcək, ədəbi ənənə və yeni nəsil arasından əsil bir körpüdür. Bunun səbəbi isə Mir Cəlal gərçək ənənələrə söykənən, öz üzərinə düşən vəzifəni dərindən dərk edən istedadlı yazıçıdır.

Mir Cəlalın hekayələri səmimidir, inandırıcıdır. Elə buna görə də geniş oxucu kütləsinə malikdir. Hekayələri ömürlük yaddaşda qalır. Hadisələrin axarı önəmlidir. Hadisələrin təsvirində üslub mürəkkəbliyinə yol vermir. Hekayələrdə təsvir olunan sadə əhvalatlar da nağıllardakı kimi cəlbedicidir. Buna görə də, Mir Cəlalın hekayələri tanınma nişanı olan əsərlərdir.

Mir Cəlal hekayələrində öyrədici qayə sərhədsizdir. Yazıçı insanı insan kimi yaşamağa, öz haqq və hüququnu dərk edib anlamağa, zəhmətinin, torpağının, öz sağlamlığının qədrini bilməyə çağırır.

Mir Cəlalın bir-birindən maraqlı, estetik mahiyyətinə, mövzusuna, müəllifin həyat həqiqətlərinə münasibətinə və digər ədəbi-bədii məziyyətlərinə görə fərqlənən kiçik həcmli əsərlərini bu cür qruplaşdırmaq olardı:

1. Lirik psixoloji hekayələr;
2. Maarifçi hekayələr;
3. Təbiət hekayələri;
4. Uşaq hekayələri;
5. Müharibə mövzulu hekayələr;
6. Satirik, yumoristik hekayələr;
7. Cəmiyyətin mahiyyətini təhrif edən formalizmin ifşasına yönələn əsərlər;
8. Sovet ideologiyasının sifarişi ilə qələmə alınan hekayələr.[19.84]

Bu bölgü elmi bölgü deyil, oxucu təəssüratlarından yaranan bir bölgüdür.

Mir Cəlal nəsrində, xüsusən də hekayələrdə satira və yumor əsas atributlardandır. Bu ədibin təbiətindən, xalqa bağlılığından, istedadının qidalandığı qaynaqlardan yaranan

üslubdur. Mir Cəlal yaradıcılığından onun satirik və yumoristik hekayələrini çıxarsaq ustad sənətkarın yaradıcılığında böyük bir boşluq yaranar.

# II FƏSİL

## Mir Cəlal lirik və satirik hekayələrin böyük ustasıdır.

### 2.1. Mir Cəlal yaradıcılığında lirik hekayələr

Mir Cəlal Paşayevə görə hekayə yazılı ədəbiyyatda epik növün əsas janrlarından biridir. Şifahi ədəbiyyatda nağıl nə rola malikdirsə,yazılı ədəbiyyatda da hekayə o rola malikdir.

Hekayə realist bir əsərdir. Hekayə kiçik həcmdə yazılmış epik əsərlərin əsas janrıdır. Hekayədə ibrətamiz,həyatı bir əhvalat, bir və ya iki əsas qəhrəman götürülür. Hadisələr məhdud bir vaxt kəsiyində baş verir.

V. B. Belinski qeyd edir ki, "müasir həyat olduqca mürəkkəb,müxtəlif və pərakəndədir. Elə hadisə, təsadüf, əhvalat var ki, dram üçün azlıq edir, romana çevrilə bilmir, ancaq məna cəhətdən dərin, ibrətli, əhatəlidir. Bir anda əsrləri səciyyələndirə bilir. Hekayədə bir hadisə alınır, yığcam, maraqlı şəkilə salınır. Belə müxtəsərlik başqa janrlarda mümkün deyildir. Elə ictimai hadisə düşünə bilmərik ki, hekayə mövzusuna aid edilə bilməsin. Tərbiyəvi -əxlaqi məna daşıyan ibrətli hadisələr, qəlbin dərin sözlərini, amansız ehtirasların toqquşmasını, bir adam, bir cəmiyyət, ya quruluş üzərinə olan acı gülüş və istehzanı hekayədə vermək mümkündür".

Mir Cəlal hekayələrini xalqdan gələn, insan davranışlarında milli keyfiyyətlərin çoxluğu, dioloqların təbiiliyi, hekayədə təsvir olunan lövhələrin inandırıcılığı, sətirləri bir-birinə birləşdirən məhəlli kalorit yaradır. Mir Cəlal hekayələrində xalq yaradıcılığına bağlılıq vardır. Yazıçının istifadə etdiyi xalq ifadələri, atalar sözləri, ibarə, məsəl, alqış, aforizm və s yığıb toplasaq həcmli bir kitab alındıra bilərik. Sanki bunlar yazıçının bədii fikrini bəzəyir, əsərin ideyasını cazibədar, canlı eləyir.

Yazıçının hekayələrini birləşdirən və fərqləndirən xüsusiyyətlər vardır. Mözu dairələri, ifadə tərzləri, gülüş, lirizm, satira ünsürləri bu hekayələri fərqləndirməyə şərait yaradır. Hekayələri birləşdirən cəhətlər zəngin dil materialları, obrazların canlılığı, artıq fikirlərin olmaması, yəni lakonizm başlıca xüsusiyyətlərdəndir.

Mir Cəlalın hekayələri səmimidir,inandırıcıdır. Bu səbəbdən də oxunaqlıdır. Bütün hekayələrin digər böyük janrlar kimi fabulası, hadisələrin inkişafı, kulminasiyası və finalı vardır. Bu hekayələr rahat oxunaqlı və ömürlük hafizələrdə qalan hekayələrdir.

Ədibin bir çox hekayələri müəyyən zaman kəsiyində xalqın dünyagörüşünə, savad səviyyəsinə uyğun olaraq maarifləndirmək xarakteri daşıyır. Bu cəhət yazıçının yalnız hekayələrinə deyil, bütün yaradıcılığına xasdır.

Mir Cəlalın hekayələrinin mövzu aləmi rəngarəng, janr xüsusiyyətləri, surətlər aləmi əlvandır. Hekayələrində həyatın müxtəlif sahələrindən götürülmüş maraqlı mövzular aləmi, vətənpərvərlik motivlər, ailə-məişət məsələləri, adi real həyatda baş vermiş əhvalatlar öz əksini tapır. Mir Cəlal hansı mövzuda yazmasından aslı olmadan öz hekayələrində həyatın dərin qatlarına nüfuz etməyi, baş vermiş hadisələrin daxili mahiyyətini açmağı bacarmışdır.

Mir Cəlal hekayələrinin əhatə dairəsi genişdir. Yazıçı kiçik hekayəni öz yaradıcılığının  müəyyən zamanı ilə bağlı, təsadüfi janr seçməmiş, onunla uzun zaman, müntəzəm məşğul olmuşdur. Bu cəhətinə görə o, özünün müasiriləri olan hekayəçilərdən hər zaman seçilmişdir.

Mir Cəlalın hekayələri üslubuna görə iki yerə ayrılır: Satirik və lirik hekayələr. Satirik üslubda yazmış olduğu hekayələri - “ İstifadə”də meşşan həyat tərzindən danışılır, ”Bostan oğrusu”nda xain qardaşların xəbisliyi, “Tövbələtmə”də içki düşkünləri, "Hesab dostları”nda özünə dayaq axtaranlar, “İclas qurusu”nda iclasbazlar, “Plovdan sonra”da övladını mənəvi cəhətdən şikəst edən valideynlərlə bağlı həyatda baş verən nöqsanlar, mənfi hallar sənətkar qələminin hədəfi olmuşdur. Belə tənqidlərlə yanaşı, Mir Cəlal insanların mənəvi gözəlliklərindən, onların qurub-yaratmaq eşqindən, saf arzu və əməllərindən fərəhlə danışmış və öz əsərlərində bu məsələlərə toxunmuşdur. “Söyüd kölgəsi”ndə həyatda yaxşı bir iz qoyub getmək arzusu ilə yaşayan insanlardan, ”İnsanlıq fəlsəfəsi”ndə özlərinə zəhmətlə,min bir əziyyətlə abidə ucaldanlardan, “Nazik mətləb” də insanlıq ləyaqətini hər şeydən üstün tutanlardan söhbət açmışdır.

Mir Cəlal 1933-cü ildə yazdığı hekayələrdən birini “Qaymaq” adlandırmışdır. Bu hekayədə yazıçı oxucularını xalqımızın keçmişindən bəhs olunmuş canlı lövhələr ilə baş-başa qoyur.

Bu hekayədə hadisələr belə cərəyan edir: “Mehbalı kişinin Məşhədi Möhsünlə haqq-salamı vardı. Onu zəmanənin təmiz adamlarından sayardı. Buna görə də bir inəyin südünü ancaq ona satardı. Mehbalı kişi qaymağı kasaya tökər, ağzını dəsmalla bağlayar, vağzala Məşhədi Möhsünün dükanına yollanardı. Hər səhər onun ən vacib işi bu olardı. Yolda kimsə ondan o qaymağı yaxşı pula istəsə də, heç vaxt verməzdi. Mehbalı kişinin onu Məşhədi Möhsünə neçəyə satdığını bilmirik. Çox böyük ehtimalla Mehbalı kişinin özünün də bundan xəbəri yox idi. Onun bildiyi tək şey Məşədi Möhsünün qaymağı gördüyü zaman gülümsəməsidir. Məşhədi Möhsün müştərisinə əl verib görüşür, hal əhval tutur, kasanı tərəzinin bir gözünə qoyur, o biri gözünə çəki daçları yığır. əgər daşlar çatışmasa, kasanın ləngəri yerdən qalxanadək soğandan, sarımsaqdan, fındıqdan, qozdan əlinə gələni atır və sonra karandaşla divara qaymağın çəkisini yazır.Mehbalı kişi nə daş tərəziyə, nə də haqq-hesaba baxardı,çünki arxayın idi.Qaymağı təhvil verəndən sonra yadına arvadının kibrit, zəncəfil istədiyi düşərdi. Kirbit və zəncəfil alıb utana-utana soruşardı ki, hesabimiz nə olacaq? Məşədi Möhsün də gələn dəfə bir kasa qaymaq gətirirsən raşod olarıq deyir. Mehrəli də bununla razılaşar geri qayıdardı. Hələ bəzən işi çıxmış olsaydı, oğluna bərk bərk tapşırardı ki, səhər tezdən qaymağı Məşhədi Möhsünə vaxtında çatdırsın. 8 yaşlı Nadirə yolda tamah güc gələndə, uşaq qaymağın bir layını yemiş olardı. Məşhədi Möhsün bu səbəbə görə qaymağı götürməyib geri qaytarardı. Halbuki bu qaymaq Nadirin haqqı idi. Nadir səhərdən axşamacan inəyi otarırdı. Bir gün atası bu səbəbi onu danlayanda o qaçaraq küçənin sonundakı söyüd agacınına söykənib ağladı. Bü söyüd ağacı sarı inək üçün nə qədər sarı yarpaq tökmüşdür. Əsərin sonunda Məşhədi Möhsünün dükanı möhürlənir və bir günün içində qapı bacanı bağlayıb aradan çıxır. Nəhayət, ailə öz məhsulunun dadının fərqini anlaya bilir.”

Hekayədə istifadə olunmuş ifadələrin zənginliyi, təbiiliyi heyrət doğurur. Bu hekayədə, sanki oxucu bir səhnəni izləyir. Oxucu Mehbalının qaymağı necə tədarük

etməsinin, vağzala aparmasının, Məşədi Möhsünün onu qarşılamağının, qaymağı çəkərək təhvil almağının şahidi olur. Oxucu hadisənin içinə tam daxil ola bilir.

Bu hekayədə, ədib sadə insanın evindəki dramatizm, cəzalanmış uşağın sarı inək üçün yarpaq çırpdığı söyüdə baş qoyaraq ağlaması ilə mətndə xəfif lirizm yaradır. Hekayə müəllifin bir çox digər nəsr əsərləri kimi nikbin sonluqla bitən əsərlərindəndir.

“Qaymaq” hekayəsində sanki, Mirzə Cəlil ruhu yaşayır. Mehbalı sovet dövrünə gəlib çıxmış Novruzəlini xatırladır.Novruzəli ağasına buğda aparır, kənd məhsulu gətirir, poçt qutusuna atmaq üçün məktub aparır. Mehbalı isə min bir əziyyətlə ərşə gətirdiyi məhsulun necə əziyyətlə başa gəldiyini fikirləşmədən Məşhədi Möhsünə qaymaq aparır.Əsərin sonunda Mehbalının etiraflarından aydın olur ki, kəndlinin öz qaymağına sahib olmasının səbəbkarı sovet hökümətidir. Mehbalının bir yerdə düşündüyü,digər bir yerdə dilə gətirdiyi sovet höküməti sözünün yad olması aydın şəkildə özünü büruzə verir.

Mir Cəlalın seçkilərə həsr olunan bir neçə hekayəsi vardır: “Nanənin hünəri”, “Badamın ləzzəti”, “Hikmətdən xəbər”. Ali sovet seçkilərinin hazırlıq ərəfəsində xalqın sevinci, ürəklə tərənnüm olan hekayələrdə kəndlilərin, ziyalıların və fəhlələrin əməkdaşlığı ön plana çəkilmişdir. Xalqın yaradıcılıq qüdrətinə, xalqın böyük mənəvi imkanlarına sonsuz bir inam bu əsərlərdə öz əksini tapmaqdadır. Seçki zamanı yaşlılarla yanaşı, gənclər də bu bayramda yaxından iştirak etmək istəyirlər. “Nanənin hünəri” əsərindəki Hünər də bu gənclərdəndir. Atası ona təsəlli verir ki: “Sən dünya sovet respublikasının bir çox seçkilərində nitq deyəcəksən”. Bu hekayədə Nanənin seçilməyin məsuliyyətini tədricən dərk etməsi, bütün imkanlardan istifadə etməyə çalışan düşmənlərə nifrəti aydın və inandırıcı göstərilmişdir.

“Badamın ləzzəti” hekayəsində insanları dəyişdirən əsas amil yenilik hissidir. Təbliğatın gücü Badam xalanın dəyişməsinə kömək olmuşdur. Nanədən fərqli olaraq Badam mühitin təsirinə daha tez düşür və gözlənildiyindən daha çox dəyişir. Adam inanmaq istəmir ki, avam,savadsız,evdar bir qadın bir iclasdan sonra köhnə şeylərdən uzaqlaşmaq qərarına gəlsin. Badam xalanın öz insani hüququnu anlaması, indiyə kimi xalqa qaynayıb qarışmadığına təəssüfü nə qədər təbii görünsə də, köhnəlikdən birdən-birə uzaqlaşmaq qərarı da o qədər həqiqətdən uzaq görünə bilir.

Mir Cəlalın seçkilərə həsr etdiyi digər hekayə "Hikmətdən xəbər" hekayəsidir. Bu hekayədə xalqın partiyaya məhəbbəti öz əksini tapmaqdadır. Seçki günü Hikmətin hədiyyə göndərdiyi xalça onun xalqa sədaqətini,səmimiyyətini aydın göstərir.

Hekayədə maskalanmış, gizli fürsət və mübarizə üsulları axtaran düşməni tanımaq haqqında aydın xəbərdarlıq hiss edilir. Seçicilər tərəfindən Şəhrəbanunun firildaqlığı aşkar edilir.

Yazıçı "Gözün aydın" hekayəsində xoşbəxt ailələrin həyatından söhbət açır. Bu hekayədə kəndin mədəni yüksəlişindən xəbərsiz olan şəhərli gəncin bütün varlığı ilə bağlanmış olduğu Bakı haqqında sevinclə, xüsusi bir fərəhlə danışması təbii təsir bağışlayır.

Hekayədə məlum olur ki, bu şəhərli gəncin yeni və müasir kənddən xəbəri yoxdur. Əvvəllər "astanadan uzağa getmək imkanı olmayan" anası indi Moskvada müşavirədə nitq söyləyərək, oğlunun həyatdan geri qaldığını aləmə bəyan etmiş, ondan incidiyinin səbəbini bildirmişdir.

Mir Cəlal, bir ailə də müxtəlif dünyagörüşünə malik olan insanları qarşılaşdırmaq yolu ilə şəhərlə kənd arasındakı fərqlərin nisbətən aradan qaldırılmasını bədii şəkildə mənalandırmağı bacarmışdır.

Ailədə qarşılıqlı hörmətin, ailə üzvlərinin bir-birlərinə qarşı məsuliyyət daşımasını ən yaxşı keyfiyyət kimi qiymətləndirən Mir Cəlal, ailəni cəmiyyətlə bağlamağa əsas diqqət yetirmişdir. Valideynlə övlad arasında məhəbbət, atalıq haqqı, övladın ailə qarşısındakı borcları elə daxili-mənəvi bağlardır ki, bu məsələlərə etinasız yanaşmaq olmaz. Qarşılıqlı hörmət və ehtiram hissini dərk etməyən, öz fərdi hisslərini hər zaman düşünən, ata və anaya hörmət hissini itirmiş meşşanlar ədibin "Şəxsi məsələ" hekayəsində tənqid hədəfinə tutmuşdur.

Xəsislik, dargözlülük, mənfəətpərəstlik övladın ailə qarşısındakı məsuliyyət hissindən məhrum olmuş Verdiyev kimilərini səciyyələndirən xüsusiyyətlərdəndir. Verdiyev atası Məsum kişini özü ilə Bakıya, özü ilə yaşamağa dəvət edərək, atasının həyatının son günlərini xoş keçirməyi haqqında qoca atasına məsləhətləri ilk baxışdan rəğbətlə qarşılanır.Məsum kişini dostlarından, kənddəki iş-gücündən, dost-tanışından ayıraraq xoş

günlər ümidi ilə şəhərə gətirməsi təbii təsir bağışlayır. Hələ bu ailədəki münasibətlərə ləkə düşməmişdir. Lakin, zaman keçdikcə təzə gəlin Cənnətin fitnə-fəsadlarına uyan, günahsız, qoca atasını evdən qovan Verdiyevin əsl siması ortaya çıxır. Müəllif, belə nankor övladların bu cür mənfi hərəkətlərini oxucuların müzakirəsinə verir,cəmiyyəti belə insanlardan təmizləmək zəruriyətini təbliğ etmişdir. Çarəsiz qalan Məsumun intihar etmək niyyətinə düşməsi, rəhbərin adına ərizə yazmaq cəhdləri adamların qayğıya necə ehtiyac duyduğunu nəzərə çatdırmışdır. Bu hekayədə minnətsiz çörəyə çatmağın, öz əlinin əməyi ilə yaşamağın mümkünlüyü ilə yanaşı, kollektivin qayğıkeşliyinə xüsusi diqqət edilmişdir.

Zəhmətkeş insanlara məhəbbət, onların ailələrini xoşbəxt görmək, insan ləyaqətini yüksək qiymətləndirmək Mir Cəlal hekayələrinin əsasını təşkil edir. Həm bu nöqteyi-nəzərdən, həm də ümumən 30-cu illərin nəsrində orijinal mövzuya həsr edilmiş "Həkim hekayələri" bu baxımdan maraq doğurur.

Mir Cəlal yaradıcılığında cəmiyyət üçün faydalı insan olmaq ideyasının təbliği əsas yer tutur. Bu ideyanı yazıçı, ailə və məişət məsələlərinə həsr etdiyi hekayələrdə, xüsusən də "Həkim hekayələri"ndə görmək olar. Müxtəlif həyat şəraitində baş verməsinə baxmayaraq bu hekayələrdəki gənc həkimin vahid bir məqsədi vardır. Bu məqsəd gəncin bütün varlığı ilə xalqa xidmətindən ibarətdir.

Hekayələrin əvvəlində bu epiqraf verilmişdir: "Xəstələnməyi təmin etmək ən yaxşı müalicə üsuludur". İlk baxışdan elə görünür ki, müəllif yalnız təbabətlə əlaqədar olan müalicə elmini nəzərdə tutur. Əslində isə ədib bununla yanaşı burada köhnəlikdən uzaqlaşmağı, adət-ənənəyə, vətəndaşların can sağlığı haqqında dövlət qayğısından, həkimlərin vətənpərvərliyi və s digər məsələlərə toxunur. Buna görə də "Həkim hekayələri" başlığının da bir ədəbi vasitə olduğu anlaşılır. Hekayələr birinci şəxsin dilindən nağıl olunduğundan xatirəyə bənzədilir. Ancaq hekayə üçün lazım olan bütün xüsusiyyətlərə malik olduğu üçün xatirədən fərqlənir. Hekayədə həyat hadisələri canlı, tamamlanmış və təsirli bədii lövhələrlə verilib. "Həkim hekayələri" silsiləsinə dörd hekayəni "Qonaqpərəst", "Müalicə", "Dostgörüşü", "Vicdan əzabı" aiddir. Bu hekayələri daxilən bir-birinə bağlayan əsas cəhət bilavasitə xalq məişəti ilə, xalqın gündəlik, zəruru ehtiyacları ilə bağlı olmalarıdır.

Ədibin “Qonaqpərəst” hekayəsində azərbaycanlıların məişətində yüz illərdən bəri davam edən qonaqpərəstliyə və bəzən xalq həyatı üçün zərərli cəhətlərindən bəhs edilir. Bağban Nəsibin xəstə uşaqlarını müalicə etməyə gələn cavan həkimin özündən razı görkəmi, Mehriban xəstə sahibinin xoş rəftarından həzz alması bu hekayənin ekzpozisiyasıdır. Həkim uşaqların bir-birinin dalınca ölmə səbəbini axtararkən, öz vicdanı qarşısında məsuliyyəti hiss edir. Həkim vaxtsız ölən, açılmadan solan qönçə haqqında fikirləşir ki, axı o ölməməli,yaşamalı idi. Yaşasaydı, “bu ailənin şənliyi pozulmazdı. Gələcək xalqımıza xeyirxah bir adam, qonqacanlı bir ana olardı”. Əsərdəki həkimi müalicədən daha çox, vaxtsız ölən xəstələrin həyat şərtləri maraqlandırır. Aydın olur ki, ailənin qonaqpərəstliyi düzgün başa düşməməsi bu məsələnin əsl səbəbi imiş. Nəsib kişiyə görə, qonağa ehtiram,qayğı lazımdır. Ailə üzvləri bir təhər keçinə bilər, qaranlıq zirzəmidə də qala bilər, keyfiyyətli yeməklərdən də gözünü çəkə bilər, “çünki böyüyün böyük yeri,kiçiyin kiçik yeri var, qonağın qonaq yeri var, qaranın qara yeri”. Bağban Nəsibin qonaqpərəstliyinin başqa bir səbəbi də, başqalarına bənzəmək, evin səliqə-səhmanında kimsədən geri qalmamaq niyyətindədir. Dost-düşmən gileyindən qurtulmaq üçün bağban görünməyən bir fəlakət qarşısında qalmışdır.

Ailənin dağılmaq təhlükəsinin mənbəyi bağban Nəsibin qonaqpərəstliyidir. Uşaqların xəstələnmə və ölmə səbəblərini aydınlaşdıra bilməyən bağban belə deyir: “Mat-məttəl qalmışam ki, bu nə bəladı, nəzərdi, gözdü, vurğundu, qarğışdı, nədi bilmədim”. Kəndlinin bu avamlığı qəzavü-qədər ilə əlaqələndirilir. Saxta qonaqpərəstlikdən qəzəblənən həkim işıqlı, geniş, səliqəli otağın qapısını açıb bağbandan soruşur ki, bu otaq kimə məxsusdur. Cavab olaraq bağban Nəsib deyir ki, “Kimin olacaq, ay doktor, sükür Allaha özümüzün. Qonaq otağımızdır da, bilmirsiniz?

-O yankı, o çarpayı qoyulan otaq kimindir?

İmranın anası dilləndi:

-Eh,-dedi,-ay doktor, fələyin üzü qara olsun, arzu kamımız var axı bizim. Oranı İmranın toyuna gəlinə saxlamışıq”. [52,413]

Bu sual-cavab Nəsib kişinin qonaqpərəstliyinin mahiyyətini açıq şəkildə aşkara çıxarmışdır. Bu söhbət həkimin əsl həqiqəti kəndliyə başa salması üçün fürsət olur.

Həkimin sözləri çox düzgün və mənalıdır. "...Sənin övladları bir-bir əlindən alan həmin o niyyətindir, sənin özünsən. Xəstəni Moskvaya aparmaq lazım deyil... Bu otağa gətirmək lazımdır. Ölən uşaqlar dirilib qəbrdən çıxsalar, sizdəki qonaqpərəstliyə lənət oxuyarlar. Doktorlara təklif etdiyin bəxşişləri əvvəlcə öz övladlarına qıy, onlara yazığın gəlsin. Qonağı işıqlı otaqda, övladlarıvı qaranlıqda, qonağı ipəkdə, övladlarını çul-çuvalda yatırdanda bəs bilmirsən ki, belə olar... Qoy övladının hesabına əzizlədiyin gəlib sənin İmranını diriltsinlər, ya sənə övlad olsunlar!" [52,430] Həkimin bu sözləri ibrət dərsi deyil, acı bir həqiqətdir.

Həqiqətən də, qonaqpərəstliyin ölçüsü olmalı, bu keyfiyyət ailənin maddi təməlini sarsıtmamalı, ailənin doğma üzvlərini ögey vəziyyətinə salmamalıdır. Əgər qonaqpərəstlik ailə üzvlərinə əzab-əziyyət verirsə, pis nəticələnirsə, demək ki nə qədər nəcib bir keyfiyyət olsa da təhlükəlidir və tənqid hədəfinə məruz qalmalıdır.

"Vicdan əzabı" hekayəsində təsvir edilmiş həkim ona görə peşmandır ki, bütün uşaqlar "bir ölçüdə, bir vəzndə, bir biçimdə olan konserv qutuları" kimi təsəvvür etmiş və öz səhlənkarlığına, məsuliyyətsizliyinə görə gözəl, istedadlı bir uşaq İmran həlak olmuşdur. Bu ölümdən əzab çəkən həkim sanki təmkinli atanın alicənablığını canlandırır.

Bu hekayədəki həkim xəstənin yalnız "fizioloji" aləmini deyil, mənəvi aləmini də öyrənməyə çalışır. O, insana ümid bəsləməyi və ona dərindən inanmağı, ondan yalnız yaxşılıq gözləməyi tövsiyyə edir. Onun idealı xalqa xeyir verməkdir. Xalqa ziyan verməmək üçün başqa ixtisas seçməyə, başqa vəzifə tutmağa hazırdır.

"Dost görüşü" hekayəsində müəllif insanları türkəçara üsulları ilə "müalicə" edən savadsız həkimləri tənqid etmişdir. Həqiqətən də, müəllif bu hekayədə həqiqi dostluq haqqında şəxsi fikirlərinə yer vermişdir. Bu mülahizələr məsləhət xarakteri daşıyır. Lakin hekayənin yığcamlığına, dinamikasına xələl gətirmiş olur. Kənddə həkimə münasibət, dostun ağır gününə imdada çatmaq, savadsız həkimin öz ixtisasını artırma fürsəti məsələləri dərin bir lirizmlə təsvir olunur. Kənd həkimi cavan həkimin üzünü qəbristanlığa tərəf tutaraq: "Bu qəbristalıqda yatanların neçə faizindən xəcalətsən"- deyə soruşması, çəkmənin ucu ilə torpağı eşələyən Mirzənin peşmançılığı təsirli bədii səhnədir.

Müalicə hekayəsində isə həmsöhbəti olmadığı üçün darıxan və oğlu tərəfindən ictimai həyata alışmaq üçün "müalicə" olunan bir qadının şəhərdəki həyatından bəhs olunur. Digər hekayələrdən fərqli olaraq, bu hekayədə hadisələr məzəli, əyləncəli xarakter daşıyır.

Deməli, Mir Cəlalın ailə xoşbəxtliyinə həsr olunan "Həkim hekayələri" gənc həkimin təcrübəsinə, ailəyə, ailə üzvlərinə, insanlara qayğı məsələlərini yalnız tibbi baxımdan deyil, həm də əxlaqi nəticələr çıxarmaq baxımından həll etməyə çalışmışdır. Belə ki, müalicənin sırf tibbi nöqteyi nəzərdən deyil də, daha çox insan xoşbəxtliyinə mane olan adət-ənənə və vərdişləri tənqid hədəfi seçmişdir.

## 2.2. Mir Cəlalın satirik hekayələri

Mir Cəlalın bədii nəsrində, xüsusən də hekayələrində yumor və satira ardıcıl sürətdə öz ifadəsini tapan keyfiyyətlərdi. Yazıçının mahiyyətcə ciddi sayılan bir çox hekayələrində yumoristik və satirik ahəng üsulu nəzərə çarpır. Bu cür yanaşma üsulu Mir Cəlalın hekayələrinə əlvanlıq, canlılıq və təbiilik gətirir. Mir Cəlal satirik və yumoristik hekayələrində klassik irsimizdən, Cəlil Məmmədquluzadə və Haqverdiyev ədəbi irsindən yaradıcı şəkildə istifadə etmişdir. Həm dilin sadəliyi, dəqiqliyi, xəlqiliyi, əlvan, rəngarən xalq ifadələrinin bolluğu cəhətdən, həm də dialoqları qurmaq, bədii suallardan, təkrarlardan, təsvir və ifadə vasitələrindən istifadə etməkdə klassik irslərimizdən çox şey öyrənmiş və əsərlərində ondan bəhrlənmişdir.

Mir Cəlal gülüşü sağlam gülüşdür. Bu gülüş keçici, ötəri bir gülüş deyil, cəmiyyətimizin inkişafına qarşı olan dərin ictimai təsiri olan gülüşdür. Mir Cəlal gülüşü tərbiyəvi əhəmiyyətə malikdir. Mir Cəlal tənqid hədəfinə ciddi yanaşır, nöqsan və qəbahətlərə heç bir zaman güzəşt etmir. Tənqid hədəflərinin rəftar və davranışlarındakı mənfi tərəfləri cəmiyyətə hansı yolla çatdırmağın daha təsirli olduğunu xüsusi bir səylə müəyyənləşdirir. Məhz bu səbəbdən Mir Cəlalın gülüşü təbiidir və xeyirlidir.

Ədibin hekayələrində satira və yumor əsasən 3 şəkildə özünün göstərir:

1) Ciddi hekayələrdə ünsür halında verilir. Məsələn: "Qonaqpərəst" hekayəsində qayğıkeş bir kəndlinin saxta qonaqpərəstliyi üzündən ailənin ağır vəziyyətinin səbəblərini

axtaran müəllif bunu bağban Nəsibin avamlığı və sadəlövlüyü ilə bağlayır. Sadəlövlük zahirən gülüş hədəfi kimi görünmür. Bu bir növ hekayəyə daxilən hərəkət verir.

2) Hekayə özü satirikdir. Müəllif əsər boyu tənqid atəşinə tutduğu hədəfi islah etmək deyil, sıradan çıxarmaq, damğalamaq qərarına gəlir.Belə hekayələrdə heç bir tərəddüd və güzəşt ola bilməz. Mənfi obraza qarşı müəllif kəskin, amansız və barışmazdır. ”Çəkmə” hekayəsində ədibin alman faşistlərinə nifrəti, ”Dardanel”də xalq malını dağıdan dələduzlara, ”Badam ağacları”nda tüfeyli ərbab və mübaşirələrə münasibəti belədir.

3) Yazıçı rəğbət bəslədiyi, cəmiyyətimiz üçün yararlı olan adamların təbiətində islah olunmalı cəhətlər tapır, onlar dostanə gülür, onları yeni həyatın fəal, nümunəvi qurucularından biri kimi görmək istəyir. ”Özündən naxoş” hekayəsindəki vasvası Əsgərə, ”Qaymaq” hekayəsindəki sadə təbiətli, lakin avam Mehbalı kişiyə, “Səfər” hekayəsindəki təmizürəkli anaya ədibin münasibəti belədir.[24,139]

Müasiri olduğu bir çox qələm dostlarından fərqli olaraq Mir Cəlalın yumoristik və satirik hekayələrində kəskin tənqidi münasibətdən savayı, bir lirizm özünü göstərir. Bu lirizm ədibin yalnız rəğbət bəslədiyi obrazlarında deyil, habelə nitqin intonasiyasında, axıcılığında, cümlənin ahəngindədir.

“Yanlış barmaqlar” hekayəsində savadsız müəllim kənd sovetinə yeni təyin olunmuş katibi təlimatçı hesab edir.Buna görə də təlimatçı qarşısında özünün və şagirdlərinin məlumatlı olduğunu nümayiş etdirmək istəyir. O, əvvəlcədən şagirdlərinə şərt kəsir ki, təlimatçı dərsə qulaq asanda sağ əlini qaldıranlara söz verəcəkdir.

Uşaqların əllərini səhv qaldırması ilə gülməli vəziyyət yaranır. Bundan sonra müəllimin “Qafqazda mərkəz hardadır?” sualına şagirdlərin “Xəzər dənizi” deməyi də gülünc vəziyyət yaradır. Bu gülüşdəki zarafat və əyləncə tədricən azalmağa başlayır. Əsasən də müəllimin “rekonstruksiya” sözünü mənalandırması daha acınacaqlı gülüş yaranır: ”Bəs qəzet oxumursuz? Orada yazılıb ki... Rekonstruksiya... rekonstruksiya necə, deyərlər... Dilimizdə söz yoxdur ki! Nə cür deyirsən çıxmır, Rekonstruksiya... bilirsinizmi nədir? Bunu belə demək olar ki,fabrikaya girirsən, qapıdan girisən fabrikaya görürsən bir yanda maşınlar,bir yanda fəhlələr vurhavur işləyirlər. Bir tərəfdə də əlində tüfəng qaravul

durmuş. Belə də adam birtəhər olur. Adamın ürəyi şad olur. Əlbətdə ki dostun ürəyi şad olur. Elə ki, birtəhər olursan ha, ona rekonstruksiya deyirlər"[20, 100]

Gördüyümüz kimi, müəllimin izahı gülüncdür. Ağıllı, elmə, savada həvəskar olan kənd uşaqlarının taleyinin belə adamlara tapşırılması həqiqətən də ürək ağrıdıcıdır.

Bu kiçik hekayənin finalı da gülməlidir. Müfəttiş zənn etdiyi adamın kənd sovetinin katibi çıxmağı müəllimi daha da gülünc vəziyyətinə salır. Nəhayət, bir dərs vaxtında baş verən sual-cavab vasitəsilə müəllif kənd müəlliminin bilik və savad səviyyəsindəki daxili boşluğu aşkara çıxarmağa müvəffəq olmuşdur. Bu hekayədə surət öz rəftarı, danışığı, hərəkətləri ilə özünü rüsvay edir, özünü gülünc vəziyyətində qoyur. Onun özünə bəraət qazandırmaq üçün gətirdiyi dəlillər mahiyyətcə gülünc olur. Buna görə də çox zaman müəllifin müdaxiləsinə, şərhinə ehtiyac qalmır.

Mir Cəlal bəzi satirik hekayələrində təşbeh, bədii təyinlər və zahiri portretin təsviri ilə gülüş yaradır. Ədib obrazın zahiri görünüşünü eybəcər əşyalarla, heyvani sifətlərlə müqayisə edir. Bununla yazıçı obrazın mənəvi naqisliyini, hadislərə münasibətindəki qüsurlu cəhətləri müəyyənləşdirməyə müvəffəq olur.

Mir Cəlal bu gülüş vasitəsindən istifadə edərək "Bostan oğrusu" hekayesində Kərbəlayi Tapdığın portretini belə verir: "Kərbəlayinin plov yeməkdən böyüyən ağzı elə geniş açılmışdı ki,oraya dolan yuxunu yeddi gün,yeddi gecədə ancaq həzm edə bilərdi"

Bu vəziyyətin təsvirində müəllifin mübaliğəsi aydın hiss olunur. Çünki,bu oğru qardaşın yuxusunda heç bir qəhrəmanlıqdan danışmaq olmaz. Mir Cəlal gülünclüyü obrazın zahiri görkəmindən çox, onun mənəvi aləmindəki eybəcərliklərində axtarır. Deməli, ədib müqayisə və təşbehlərlər yolu ilə satirik obrazların gülünclüyünü daha canlı, daha qabarıq göstərir.

"Mirzə" və "Qəmbərqulu" hekayələrində isə ədib müəllimlərin şagirdlərin təliminə yanaşma üsullarının tənqidi əsas yer tutur. Bu hekayələrdə tənqid atəşinə hədəf olan yeni təlim üsullarını bilməyən müəllimlərdir. Mirzə Şəfi ("Mirzə") yoxsulların istedadsız olduqlarını iddia edir. O bildirir ki, "lüt Kərimin oğlu"ndan, "Abdal Balaxanımın nəvəsi"ndən oxuyan çıxmaz. O, yoxsullara təhqirlə yanaşaraq, hər bir kəndlinin balasının səmimi bir hərəkətində bir eyib, qüsur axtarır. "Qəmbərqulu" hekayəsində də müəllif onu

göstərir ki, məktəb direktoru iddia edir ki, vaxtilə məsciddə “ayaqqabı cütləyən”in oğlunda heç bir istedad, qabiliyyət ola bilməz. Çünki o gənc, atasının hərəkətləri üçün də məsuliyyət daşıyır.

“Qəmbərqulu” hekayəsindəki Qəmbərqulu insanları ictimai keçmişinə görə qiymətləndirir. Onun üçün adamların cəmiyyət üçün hazırkı xeyri önəmli deyil. “Mirzə” hekayəsindəki Mirzə kəndli uşaqlarına münasibətini açıq bildirir, ona görə ki bəzi valideynlər övladlarını tapşırdıqları zaman “əti sənin sümüyü mənim” demişlər. Hər iki hekayənin qəhrəmanları zahirdə iddialı,öz hərəkətlərindən razı kimi görünsələr də,daxilən narahat,yenilikdən qorxandırlar.Bu qorxu hissini doğuran əsas səbəblər isə öz nəzəri səviyyələrinin aşağı olduğunu,öz gücsüzlüklərini dərk etmələridir.

Tənqidə hədəf olmuş müəllimlərin bu cür hərəkətlərini rüsvay edən müəllifin ifşa üsulları da fərqlidir. Mirzə Şəfini təsvir edən ədib ifşaedici müqayisələrdən, bədii təyinlərdən istifadə etmişdir. Məktəb drektoru Qəmbərqulu isə qayğıkeş, savadlı dərs hissə müdiri ilə qarşılaşdığı zaman gülünc vəziyyətə düşür.

Hər iki əsərin süjet xəttində hekayələrin sonluqları da müxtəlifdir. Mirzə Şəfinin vəzifədən azad edilməsi, Qəmbərqulunun isə kollektiv qarşısında rüsvay olması obrazların daxili imkanlarından, hekayələrin bədii məntiqindən doğur.

Bu obrazların bir müəllim kimi birləşdikləri cəhətlər də vardır. Hər ikisi təlim, tədris barədə düşünür, onların hər ikisinin ətrafı məktəb və məktəb kollektivi əhatə etmişdir. Lakin fərdi xüsüsiyyətlərinə görə Mirzə mövhumatçı, kobud biridir, o keçmiş həyata bağlıdır, yeni həyatla deyil. Qəmbərquluda isə inadkarlıq,istedadlı və savadlı uşaqlara qarşı etinasızdır.

Ancaq indiki zamanda gənc nəslin taleyini, təlim və tərbiyəsini belə məhdud fikirli, köhnəpərəst adamlara tapşırmaq olmaz. Mir Cəlalın hekayələrinin bir qisminin köhnəliyə, geriliyə, mənəvi durğunluğa və ətalətə qarşı yazılmışdır. Bu hekayələrin mövzusu və tənqid hədəfi müxtəlif və rəngarəngdir.

Ədib demək olar ki, köhnəliyi təmsil edən tiplərin bir birini təkrar etməyən nümayəndələrini, müxtəlif həyat tərzinə, ixtisas və peşəyə,həyati təcrübəyə, cəmiyyətə, ailəyə, əməyə müxtəlif nöqteyi-nəzərdən yanaşan, müasir hadisələr haqqında xüsusi

baxışı, qənaəti olan adamların əhvali-ruhiyyəsini, əxlaq və davranışını təsvir etmişdir.[24,61]

İşlədiyi yeri ancaq gəlir mənbəyinə çevirən mağaza müdiri (“Təzə toyun nəzakət qaydaları”), həyatın ictimaiyyətin gündəlik tələblərindən geri qalan modabaz (“Mərkəz adamı”), imzasız məktublar yazıb namuslu insanları ləkələmək istəyən materialbaz (“Mərdimaza”), vətəndaşlıq borcunu dərk etməyən tənbəl həkim (“Həkim Cinayətov”), bir-birinin sərvətində gözü olan qardaşlar (“Bostan oğrusu”) və digər hekayələrdəki obrazlar mənalı və təsirli gülüşə hədəf olmuşlar.

Bəzən ədib hər hansısa mənəvi eybəcərliyin tənqidini ancaq bir əsərdə vermiş,bəzən də eyni mətləbə dönə-dönə qayıtmağı özünə borc bilmişdir.Məsələn,ədib imzasız məktublar yazaraq idarə heyyətinin səmərəli vaxtını alan fırıldaqçının fəaliyyətinə ancaq bir hekayə (“Mərdimazar”) həsr etdiyi halda, idarədəki süründürməçiliyin zərərinə toxunan beş hekayədə (“Həkim Cinayətov”, ”Anket Anketov”, “İclas qurusu”, “Mətişkə”, “Kağızlar aləmi”) ümumiləşdirmişdir.

Ədibin satirik və yumoristik hekayələrində təsvir olunan müsbət qəhrəmanlar öz zahiri görkəmləri ilə diqqət çəkmirlər. Onlar öz gördükləri işlərindən təmtəraqla danışmağı sevmirlər, sadəlövh və səmimidirlər. Öz şərəfli, əziyyətli zəhmətlərinə adi bir iş deyə yanaşırlar. Bir sözlə qeyd etsək, onlarda zahiri bəzək yoxdur, zənginlik onların daxili mənəviyyatlarındadır. Onların ən nəcib keyfiyyətləri minnətsiz çörək yemək, işgüzarlıq, qarşılıqsız yaxşılıq etməkdir. “Mərdimazar”dakı Cahangir, “Mərkəz adamı”nda Abbas kişi, “Kağızlar aləmi”ndəki Məcid rəğbət bəsləniləsi obrazlardır.

“Təzə toyun nəzakət qaydaları” hekayəsində mədəni rəftarı ancaq zahiri “nəzakət qaydalarına” sığdıran, nəzakəti yalnız məclisdə və ya hansısa yığıncaqda sakitliyə riayət etmək kimi başa düşən, əslində mərifət pərdəsi altında gizlənmiş mədəniyyətsiz, kobud tufeylilər hekayədə tənqid olunur. “Təzə toyun nəzakət qaydaları” hekayəsində ədibin toxunduğu toy məclisi, məclisdəki şənlik, ev sahibinin qonaqpərəstliyi hələ də indiki toylarda öz əksini tapmaqdadır.

Ədibin bu hekayəni yazmaqda məqsədi heç də azərbaycanlıların toy adətlərini  tənqid etmək deyil. Burada əsas məqsəd adətləri saxtalaşdıran, ənənələri pozan nəzakətsizliyi rüsvay etməkdir.

"Təzə toyun nəzakət qaydaları"(1934) hekayəsində müəllif iştirakçıları filə, qarışqaya, hörümçəyə bənzətməyi müəllifin onlara qarşı mənfi münasibətini ifadə edir. Onların toyda taxdıqları zinət əşyaları, lüzumsuz yerə xərclənən pulların saxta yolla əldə etdikləri, xalqa zərər vurduqları üçün günahkardılar. Belə saxtakarlığa şahid olan müəllif, əlbətdə ki bu mənzərəyə etinasiz qala bilmir.

Mir Cəlal öz rütbəsindən, vəzifəsindən sui-istifadə edərək adamları narazı salan mənfəətpərəstləri "Anket Anketov" hekayəsində tənqid etmişdir. Hamamlar tresinin rəisi olan Anketov rəflərdə yerləşən sənədləri "həqiqi insan", iş qabiliyyəti olan kadrlar kimi görür. Ona elə gəlir ki, burada işləyənlər elə həmin anketlərdi və bu insanlar xəstələnə və ya yerlərini dəyişməli olarlar deyə düşünə bilmir. Anketov yanında işləyən insanların şəxsi həyatlarına biganə yanaşır, onların güzaranından xəbərsizdir. O, canlı işçilərinin reyini öyrənməkdən həmişə imtina edir və qovluqdakı sənədlər ilə söhbət edərək həqiqəti aşkara çıxarmağa çalışır və bundan təsəlli tapır.

Bütün əsər boyu Anketov qovluqlarla məşğul olduğu göstərilir və Anketovun məsuliyyətsizliyi, məsləksizliyi, qorxaqlığı əsər boyu ifşa olunur. Lakın hekayədə yalnız bu ifşa üsulundan istifadə edilməyib. Ədib Anketovun təkcə hərəkətləri ilə deyil, həm də üzünün cizgilərilə daxili aləmini açmağa çalışır.O, öz haqqını tələb edən işçilərə qəzəblənsə də, sənədlərə qarşı "səmimi", sakit rəftar edir. Anketov üzünü şəxsi qovluğa tutaraq deyir: "Heç gözləməzdim səndən. Vallahi, billahi gözləməzdim. Mən səni baş qulluğa qoyuram. Bu nə zarafatdı. Buna mən zarafatdan başqa ad qoya bilmirəm. Bir də belə zarafatları eləməyəsən, haydi işə başla".

Rəsmiyyətçi, sənədpərəst bir adamın sənədlərdə bu şəkildə söhbəti qeyri-adi görünür. Aydın olur ki, ədib belə adamları konkret şəraitdə, həyatın müəyyən sahələrində görmüş ola bilməz.

Gülüş mənalı, ictimai məzmuna malik olduqda, o çox güclü təsir və tərbiyə vasitəsinə çevrilə bilir. Bu xüsusiyyət yazıçının "Çupçik", "Çəkmə", "Ər və arvad" hekayələri üçün

də səciyyəvidir. "Çupçik" əsərində gəzməyə çıxan alman səyyahının başına gəlmiş qəribə əhvalat vasitəsilə cəmiyyətin eybəcərliyi, yaltaqlıq, qulluqbazlıq və qorxaqlıq kimi çirkin simaları kəskin tənqid edilir. "Ər və arvad" hekayəsində isə Hitler əsgərlərinin qarətçiliyi göstərilmiş, Vaqnerin onlar satira, tənqid obyektinə çevrilmişdir. İctimai məzmun və bədii ümumiləşdirmə "Çəkmə" hekayəsində daha qabarıq özünü büruzə verir.Burada yazıçının məqsədi böyük mətləblərlə əlaqədardır. Əsas məsələ budur ki, Mir Cəlal canlı ifşa obyektlərini düzgün seçərək, tam hədəfə tuş almışdır.

Mir Cəlalın «Kağızlar aləmi» hekayəsinin əsas mövzusu yeniliyin köhnəlik üzərində qələbəsidi. Bu hekayədə adamları ancaq sənədlərə görə qiymətləndirən rüşvətxorlar və süründürməçilər tənqid edilir. Hekayədə köhnəliyi kağızlar aləmi içərisində itmiş Fikri Nijadlar, Bədiülcəmal xanımlar təmsil edir. Onlar vətəndaşlıq borclarının xalqa xidmət olduğunu unudurlar, cansız kağız parçalarına bağlanırlar. Hekayədə zahirən elə təsvur olunur ki, notarius idarəsindəki işçilərinin həddən artıq ehtiyatlı olunmasının məsuliyyətli olmalarındadır və burada təəccüblü heç bir şey yoxdur. Sonda baharın gəlişinin təsviri təsadüfi verilməmişdi. Yazıçı bu sonluqla cansıxıcı, maraqsız dəftərxana həyatı ilə yeni həyatın gəlişi arasında güclü təzad yaratmışdı.

Mir Cəlalın "Çəkmə" hekayəsində faşistlərin cəbhədəki üstünlüyü zamanı xüsusi təyinatla cəbhə arxasına göndərilmiş türk casuslarının pis niyyətlərindən bəhs olunur. Bu casuslardan biri də İsrafilbəydi. O və onun simasında digər cəsuslar almanlara güvənərək Bakı neftinə can atırlar. Hekayədə müharibənin uzanması nəticəsində təlaşa düşən alman matorunun narahatlığı, öz taleyindən gileylənməsi təbii təsir bağışlayır. Necə inana bilərik ki, "qoşununun yarısını xərcləyən" alman mayoru nimdaş çəkmələri üçün böyük narahatlıq keçirmiş olsun. Bundan əlavə kəşfiyyat adı ilə dörd nəfər saldatı çəkməni tapmaq məqsədi ilə günün günorta çağı güllənin altına göndərmək fikrinə düşsün. Mayor nə qədər də insan həyatına ehtinasız olmuş olsa belə, bir çəkmənin qayğısına bu qədər qalmazdı.

Təəssüflə onu qeyd etməliyəm ki, Mir Cəlalın müharibədən sonra yazmış olduğu hekayələri əvvəlki satirik hekayələrin nisbətən zəifdir. Bu hekayələrə "Mərdimazar", "Gərək olar", "Özündən naxoş" və "İclas qurusu" satirik hekayələri daxildir.

“Mərdimazar” hekayəsinə nəzər salaq. Hacı oğlu namuslu adamlara imzasiz məktublar yazaraq onları ləkələmək istəyir və sonunda məhkəmə məsuliyyətinə cəlb edilir. O, bir insan kimi canlı bir insan təsiri bağışlamır. Onun bu hərəkətinin təbiətdəki hansı xəstəlik cəhətləri ilə bağlı olduğu aşkar olunmamışdır. Mərdimazar Cahangir haqqında yazaraq bildirir ki, onun atası vaxtilə baqqal olub və düşmənlərə yumurta satıb.

Yuxarıdan göstərdiyimiz bəhanələr özlüyündə çox gücsüz dəlillər ola bilər. Lakin,əsl mərdimazarların məlumatlarında ağla batan  dəlillər,faktlar olmalıdır.

“Özündən naxoş” hekayəsində Mirzə Əsgərin təbiətində yalnız bir cəhət mövcuddur: öz canının qeydinə qalması. Əsərin finalı maraqlı sonluqla bitir. Mirzə Əsgər könülsüz sürətdə istirahət günü olmağına baxmayaraq, ac və yorğun  qayıdır. Ancaq nərmə-nazik böyümüş özündənnaxoş adamı dəyişə bilir.

Digər bir hekayə “Gərək olar” hekayəsidir. Bu hekayə digərlərinə nisbətən daha maraqlıdı. Burada kinayə və islahedici gülüşdən nisbəstən az, təbəssüm və yumordan çox istifadə edildiyi hiss olunur. Ana köhnə dünyanın ədalətsizliyi ilə bağlı yığımcıl və ehtiyatlı təsvir olunmuşdu. Vaxtilə əmisinin evində qulluqçu olduğu zaman ona əmisi uşaqlarının köhnəsini geydirirmişlər. Köhnələri dar gün üçün qoruyub saxlamaq ənənəsi də burdan yaranmışdır. Qadının köhnəliyin xoşagəlməz mirasından ayrılması narahatlığı gülüş yaradır. Ömrünü özgə qapısında keçirən bu zavallı qadının gəncliyində itirdiyi qiymətli vaxtlara bu gülüşlə yazıçı böyük bir təəssüf hissi keçirir.

Satirik hekayələrdən biri də “İclas qurusu” hekayəsidir. Yazıçı bu heakyədə mübaliğəyə o qədər geniş yer vermişdir ki, kinayə dərəcəsi artırmış, islahedici gülüş sərt gülüşlə əvəzlənmişdir.

Real həyatda iclasbazlığı, sənədlərlə gün keçirməyi, habelə ailədə rəsmiyyətçiliyə riayət etməyi üstün tutan adamlar vardır. Müəllifin də qeyd etdiyi kimi, onlar suların səsindən, şənlikdən, gülüşdən uzaq adamlardır.

Bu cür adamların fikrinə görə: “Kainat böyük bir iclasda imzalanmış qərar üzərində yaranmışdır”. Belə adamlar düşünür ki, həyatdakı hər bir yenilik iclas qaydalarını pozan qanunsuzluq kimidir. Onlar hər zaman narahatlıqla ömür sürürlər.

Yazıçı hekayədə iclas qurusunun qızına dəftər-kitab almasını belə təsvir edir:

Əvvəlcə qız atasına ərizə yazırdı. Sonra ərizə məktəbə, müəllimin təsdiqinə göndərilirdi. Daha sonra Meyransa qol çəkirdi. Nəhayət, İclas qurusu maqazindən kitab, dəftər alıb gətirir, qıza qol çəkdirəndən sonra siyahı ilə verir və vaxt qoyurdu: "Gələn ayın ikinci həftəsinin sonuna qədər". Həmin siyahının bir sürətini idarəyə, "nəzarət üçün" müdirə göndərir, bir üzünü də öz "arxivində "ehtiyat" üçün saxlayırdı, gələcəkdə yoxlasalar lazım olar"

Hekayənin belə bir neçə yerində yazıçı real həyatdan uzaqlaşmış kimi göründüyündən obraz gülüş hədəfinə çevrimiş, zahirən inandirici göstərilməmişdir. Lakin, Mir Cəlal 30-cu illərdə yazmış olduğu satirik hekayələrində heç bir obrazını təbiilikdən çıxarmağa çalışmamışdır.

# III FƏSİL

# Mir Cəlal hekayələrinin tədrisi üsulları

## 3.1. Mir Cəlalın lirik hekayələrinin tədrisi

Məlum olduğu kimi interaktiv təlim metodları ən yeni texnologiyalardan biri sayılır.

Təlim texnologiyası deyəndə pedaqoji prosesdə təlimin ən yeni və ən səmərəli metodlarından, priyom, tərz və vasitələrindən istifadə etməklə yüksək elmi – intellektual səviyyəyə və nümunəvi mənəvi - əxlaqi normalara malik olan şəxsiyyətin yetişdirilməsi nəzərdə tutulur.

"İnteraktiv" latın sözü olub, iki mənada təqdim olunur. Birincisi "intero" şəklində, yəni "daxili", "içəri" mənasında, ikincisi isə "internaşin" şəklində yəni "ara", "qarşılıqlı əlaqə", "dialoq" "beynəlxalq" mənasında işlədilir. "Aktiv" və ya "akt" sözü isə beynəlxalq status almış "aktivişhin" sözündən olub, "fəaliyyət", "fəal", "fəallıq", "fəallaşmaq" mənasında işlədilir. Deməк, "İnteraktiv" "qarşılıqlı əlaqə", "anlaşma", "əməkdaşlıq", "dialoq" deməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur. Bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, "interaktiv" sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir tələbə və ya şagirdin öz müstəqil fikri, düşüncəsi və ideyası olur və hər bir zəif şagird də fəallaşır. Bütün bunlar da, heç şübhəsiz, təlim keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, şagirdlərin mənimsəmə keyfiyyətini artırır.

İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar. İnteraktiv təlim üçün aşağıdakı cəhətlər səciyyəvi ola bilər:

- müəllim tərəfindən şüurlu surətdə idraki problem situasiyasının yaradılması;
- problemin həlli prosesində tələbə və ya şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- tələbə və ya şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi

əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

İnteraktiv təlim prosesində şagirdin mövqeyi – "kəşf edən", "tədqiqatçı", araşdırıcı" mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

Müəllimin mövqeyi – fasilitator ("bələdçi", "aparıcı") daha çox istiqamətverici mövqeyindədir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir.

Ədəbiyyat dərsində mətni tam bilmək, mətnin ideyasını bədii suturukturunu, bədii mənasını dərk etmək məzmunun ən vacib ünsurlərindəndir. Belə ki, bədii əsərin ideyası və onun bədii təhlini verməyi bacarmaq tələbələrin ədəbi biliklərinin özəyini təşkil edir. Bundan başqa, tələbə hadisələrin gedişini və qəhrəmanların hərəkətlərini təhlil etməli, onlar arasında olan əlaqəni qurmağı bacarmalıdır. Şifahi nitqin formalaşması da ədəbi biliklərin məzmununu təşkil edir. Tələbənin şifahi nitqinin formalaşmasında ədəbiyyat dərsinin rolu böyükdür. İnsanda ədəbi düşüncəni yaratmaq ədəbiyyatın əsas məqsədidir. Əsas məsələ düzgün və lazımlı üsullardan istifadə edərək ədəbi düşüncəni inkişaf etdirməkdən, onu tam formalaşdırmaq üçün lazimi vəziyyətə gətirməkdən ibarətdir.

Bilal Həsənli öz kitabında ədəbiyyat dərslərinə qoyulan tələbləri aşağıdakı kimi sıralayır:

1. Dərsin özündən əvvəlki və sonrakı məşğələlərlə əlaqəsi
2. Dərsdə təlimlə tərbiyənin vəhdəti

3. Dərsin bütün mərhələrində şagirdlərin fəallığının təmin edilməsi
4. Şagirdlərin əmək intizamının təmin edilməsi
5. Dərsdə vaxtdan səmərəli istifadə
6. Dərsin zəruri vasitələrlə təmin edilməsi[6,51]

Yuxarda göstərdiyimiz tələblər orta məktəb üçün nəzərdə tutulmuşdur. Biz bu tələbləri ali məktəbə aid edə bilmərik, çünki ali məktəblərdə müəllim nəsə tələb etmir, məsuliyyəti tələbə özü başa düşür.

Tələbəyə öyrədilməsi nəzərdə tutulan materialı uyğun metod və üsullar, priyomlar seçmədən, dərsdə onlardan istifadə etmədən mənimsəmədən danışmaq olmaz. Tədris olunan materialın xarakterinə uyğun metodlar seçib dərs prosesinə tətbiq etmək ən baçlıca metodik tələblərdəndir.

Hər hansı nəzəri bilik olan dərsin tədrisində müəllimin natiqliyində, dərsi izahetmə bacarığı da metodik tələblərdəndir. Bu tip dərsin tədrisində tələbədən dinləmə, öyrənmə bacarığı tələb olunur. Müəllim bu zaman metodik bacarığını göstərməlidir. Bədii əsər üzərində iş zamanı isə müəllim arxa plana keçir. Tələbənin düşünməyi üçün bu şəraitin yaranması əsas məsələdir. Bunun üçün tələbəyə lazimi düşünmə mühiti yaradılmalıdır.

Ədəbiyyat müəllimlərinin əlində olan metodik vasitələrdə “müəllim şərhi” adlı hissədə deyilir: “müəllimin sözü üç formada olur: müəllim nəqli, müəllim şərhi, mühazirə” [66,72]

Göründüyü kimi, müəllimin nitqi dərsdə əsas metodik tələbdir. Müəllim yuxarıda göstərilən üç şəraitdə dərsə müdaxilə edə bilər. Bu formaların da hər birinin səbəbi və məqsədi vardır.

Müasir dövrdə yeni təlim prosesində mütləq interaktiv təlim metodlarından istifadə edilməlidir. Bu metodlar qarşıya qoyulmuş məqsədə daha tez çatmağa kömək edir, təlimin səmərəsini artırır.

Yeni təlim texnologiyası dedikdə, dərsə tətbiq olunan ən yeni metod və üsullarla dərsin uğurlu keçməsini təmin etməkdir. Kommunikativ metodun əsas məqsədi isə tələbəni problemə köklənməyə maraq yaratmaqdır. Problemi vəziyyətin yarandığı zaman

tələbə gərək idrak fəallığını nümayiş etdirə bilsin. Qarşıya qoyulan problemə tələbə düz və ya səhv münasibə bildirə bilər.

Ali məktəbdə yeni təlim metodu ilə dərsi belə verə bilərik:

1. Dərsə giriş. Materialın təqdim olunması
2. Köhnə dərsin müzakirəsi və qiymətləndirilməsi
3. Yeni materialın qavranılması üçün işin təşkili
4. Yeni material barəsində mükazirənin aparılması
5. Dərsdə müzakirə olunmuş məsələlərə tələbələrin münasibəti
6. Dərsin interaktiv metodlarla tədrisi
7. Yeni dərsin müzakirəsinin yekunu

Kommunikativ təlimdə dərsin bəzi hissələrini müxtəlif üsullarla işləmək lazımdır. Məsələn, yeni dərsin izahi zamanı diskursiya metodundan istifadə edə bilərik. Bu metod tələbəyə hər cür çətin vəziyyətdən çıxmağı öyrədir.

Bədii əsərin təhlili ədəbiyyat fənni üçün ən vacib məsələlərdəndir. Hər hansı bədii əsər oxunarkən, fərq etməz nəsr və ya nəzm, burada ən vacib ünsür əsərin təhlilinin aparılmasıdır.

Mir Cəlalın hekayələrini də yeni təlim metodları ilə tədris etmək mümkündür. Bu gün Mir Cəlalın hekayələrinə nəzər saldıqda insanı heyrətləndirən məqam budur ki, onun mövzular aləmi və problematikası nə az nə azacıq, düz yüz il sonra da gündəmdədir, insanları düşünməyə vadar edir, qayğılandırır. Elə bil ki, Mir Cəlal bizimlə yaşayır, bugün aktual olan problemlər onu da düşündürür.

Mir Cəlalın "Həkim hekayələri" silsiləsinə daxil olan "Qonaqpərəst" hekayəsinin tədrisini nəzərdən keçirək.

Mir Cəlalın "Qonaqpərəst" hekayəsinin tədrisi

Mövzu: Mir Cəlalın "Qonaqpərəst" hekayəsinin təhlili

Məqsəd:

- Hekayənin ideya-bədii xüsusiyyətlərinin mənimsənilməsi;
- Yaradıcı təfəkkürün inkişaf etdirilməsi;
- Kollektivlə işləmək bacarığının formalaşdırılması;

- Şagirdlərin müasir təhsil sistemi ilə bağlı fikirlərini öyrənmək.

İş forması: Kiçik qruplarla iş

Metod, priyom və iş növləri: müəllimin izahı, müsahibə, problemin həlli, əqli hücum.

Təchizat: Mir Cəlal. Seçilmiş əsərləri. I cild. Bakı. Azərbaycan Dövlət nəşriyyatı. 1986

Problemli vəziyyətin yaradılması və problemin qoyuluşu: Qonaqpərəst dedikdə nə anlaşılır? Ölkəmizdə qonaqpərəstlik nədən ibarətdir? Müəllim sinfə bu suallarla müraciət edir.

Tədqiqatın aparılması: Şagirdləri dörd qrupa bölürük. Bunu müxtəlif üsullarla etmək olar. Sinifdə şagirdlərin sayı nəzərə alınmalıdır. İyirmi nəfərlik sinifdə kiçik qrupu formalaşdırmaq üçün belə bir üsula əl ata bilərik. Şagirdlərə təklif oluna bilər ki, birdən dördə qədər saysınlar. Sonra birlər, ikilər, üçlər, dördlər hərəsi bir stolun ətrafında əyləşsinlər. Hər bir qrupa əsərin məğzinə uyğun ad verilir. Yaxşısı budur ki, qrup liderləri hər zaman eyni sagirdlərdən seçilməsin. Qrup lideri olmaq şansı hər şagirdə verilməlidir. Bu şagirdlərdə özünə inam gücləndirəcək. Bundan sonra müəllim hazırladığı iş vərəqlərini qruplara paylayır. Tapşırıqlar hər qrupa paylandıqdan sonra vaxt elan olunur və tədqiqat başlanır. Tədqiqata təxmini 12 dəq vaxt ayrılır.Bu vaxt ərzində şagirdlər bir-birləri ilə əməkdaşlıq edərək suallara cavab tapmalıdırlar. Beləliklə qruplara verilən tapşırıqlara baxaq:

I qrup iş vərəqi:

1. Niyə uşaqlar bir-bir xəstələnirmiş? Fikrinizi aydınlaşdırın.
2. Həkim obrazını necə səciyyələndirirsiz?
3. Ailənizdə qonaqpərəst olan kimdir?

II qrup iş vərəqi:

1. Nəsib kişinin səhvi nədə idi?
2. Həkim niyə bir anlıq vicdan əzabı keçirir?
3. Niyə ata övladına çürük nar yedirdirmişlər?

III qrup iş vərəqi:

1. Həkimi sonda elə danışmağa nə vadar edir?

2. Hekayənin sonluğunu başqa cür necə qura bilərdiz?
3. Hekayədə istifadə olunmuş bədii təsvir vasitələrini seçin.

IV qrup iş vərəqi:

1. Hekayəni öz təxəyyülünüzə uyğun davam etdirin.
2. Həkim ilə Nəsib kişinin müsbət və mənfi tərəflərini müəyyənləşdirin.
3. Qonaqpərəstlik niyə bu ailəyə pis təsir göstərir?

Şagirdlər dərslik və digər çap materiallarından istifadə edərək tapşırıqları yerinə yetirirlər.

Məlumat mübadiləsi: Bu mərhələdə hər bir qrup əldə etdiyi nəticəni təqdim edir. Bununla bütün qruplar bir-birlərinin işlərinin məzmunu haqqında təsəvvür qazanırlar. Qrup liderləri təqdimat zamanı öz qruplarının işini sinifə təqdim edir. Digər şagirdlər qrup üzvlərinə müxtəlif suallarla da müraciət edə bilərlər. Bu mərhələdə müəllim şagirdləri diqqətlə qulaq asmağa səfərbər etməlidir. Bu mərhələ iş vərəqlərinin lövhədə yapışdırılması ilə sonlanır. Bundan sonra qrupların işlərini qruplaşdırıb ümumi məlumat yığırıq.

Məlumatın müzakirəsi və təşkili: Bu mərhələdə təqdim olunan işlərə nəzər salınır. Fərqli xüsusiyyətlər nəzərə alınır və yekun bir rəyə gəlinir.

Müəllim sinifə müraciət edir. Müəllif bu hekayəndə bizə nəyi başa salmağa çalışdı? Əsərlə bağlı əhatəli bilik əldə etmiş şagirdlər müəllimin yekun sözünə ehtiyac qalmadan nəticəni çıxarırlar. Şagirdlər əsasən bu nəticələri əldə edirlər:

1. Yazıçı bizə qonaqpərəst olmağın nə demək olduğunu düzgün izah etməyə çağırır.
2. Övladların sağlamlığının qonaqların rahatlığından daha üstün olduğunu aşılayır.

Nəticələrin çıxarılması mərhələsi: Bu mərhələdə isə yeni biliyin əldə olunması əsas götürülür. Motivasiya mərhələsindəki tədqiqat sualı və ona dair irəli sürülmüş fərziyələr qarşılaşdırılır. Yaradıcı tədqiqetmə mərhələsində isə əldə etdiyimiz yeni bilik yaradıcı şəkildə tədqiq olunur. Burada şagirdlərə hekayənin mövzusuna aid atalar sözləri, məsəllər və aforizmlər yazılmağı tapşırılır. Bütün bunlardan sonra isə refleksiya mərhələsi

başlanılır. Bu mərhələdə məlumatın biliyin əldə olunması mərhələlərinə nəzər salınır. Sonuncu Mərhələ işə qiymətləndirmə mərhələsidir. Qiymətləndirmə üçün aşağıdakı meyar cədvəlindən istifadə etmək olar.

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Dərsdə fəal iştirak edir. | | | | |
| Verilmiş tapşırıqları yerinə yetirə bilir | | | | |
| Dərsə tutarlı əlavələr edir. | | | | |
| Ümumi nəticə | | | | |

Qrup işindən aslı olaraq meyarların qarşısında “+” və “-“ işarələri qoyulur.

Hekayə böyük diqqət tələb edən janrıdır. Şagirdlər hekayə üzərində müxtəlif tədqiqlər apararaq fikirlərini formalaşdıra, bir çox təhlilər apara bilirlər.

### 3.2. Mir Cəlalın satirik hekayələrinin tədrisi

Müasir təhsil yanaşmaları şəxsiyyətyönümlü təhsildir. Hər bir şagirdin fərdiliyi və öyrənmə fəaliyyətinin unikallığı bu yanaşmanın əsas komponetlərindəndir. Şəxsiyyətyönümlü təhsildə şagird bütün təlim prosesinin mərkəzində dayanır.

Müəllim bu yanaşmada bilik mənbəyi kimi çıxış etmir, şagirdin inkişafında bir bələdçi, köməkçi kimi iştirak edir. Bu cür təlim prosesini M.Monterssorinin təklif etmiş olduğu fikir əsasında izah edə bilərik - “Bunu müstəqil şəkildə yerinə yetirmək üçün mənə yardım et”.

Burada müəllim fikirləri çatdıran deyil, şagirdin öz potensial imkanını öyrənmə texnologiyaları ilə təlim mühitini yaratmaqdır. Müəllim və şagird hər ikisi birlikdə şagirdin şəxsi keyfiyyətlərinə yönələn təlim fəaliyyəti yaradır.

Mir Cəlal fəal müşahidəçi, axtaran və öyrənən sənətkardır. Mövzuları da müxtəlif və rəngarəngdir. Odur ki mənfi ehtiras və duyğuların təsiri altında nəinki biri digərindən çırpışdırmağa, hətta qısas almağa fürsət doğma qardaşlar da müəllifin diqqətindən

yayınmır, müşahidə və tədqiq obyektindən kənar qalmır. Bu cür adamların daxili aləmi, fərdi psixologiyası, arzu və əməlləri inandırıcı qələmə alınır.

Fəal-interaktiv dərs məzmununa və quruluşuna görə ənənəvi dərsdən xeyli fərqlənir. Fəal-interaktiv təlimin əsas məqsədi dərs prosesi zamanı şagirdləri fəallaşdırmaq, biliklərin qazanılmasında onların müstəqil olmalarını təmin etməkdir. Fəal dərsin mərhələlərinin çoxluğu, məzmunca mürəkkəbliyi ilə ənənəvi metoddan fərqlənir. Belə dərsləri təşkil etmək müəllimdən ciddi elmi-metodiki hazırlıq və böyük zəhmət tələb edir. Bu məsələdə isə iki cəhətə önəm verilir. Birincisi, idrak fəallığının yaradılması, ikincisi, onun davamlılığına nail olunmasıdır.

Ədəbiyyat dərslərində mövzunun mənimsənilməsini bədii əsərin təhlili ərəfəsində sinfə sualla müraciət edən müəllim şagirdlərin diqqətini əsas məsələyə çəkir, "mövzu haqqında nəyi bilirik,nəyi bilmirik?" və s. Tədqiqat üçün sual məhz cavabların əsasında müəyyənləşdirilir.

Dərs prosesi zamanı tapşırıqların həcminin və tələblərinin müəyyənləşdirilməsində diqqətli olmaq lazımdır. Ümumiyyətlə, fəal-interaktiv təlimin başlıca məqsədi tələbələrə çoxlu həcmdə bilik çatdırmaq yox, öyrənəni tədqiqatçılığa yönəltmək, verilmiş problemi müstəqil araşdırmaq bacarığını formalaşdırmaqdır. Fəal təlimdə materialının həcmcə böyük olması vacib olmadığı kimi, sərfəli də deyildir. Bu mənada humanitar fənlərin indiki proqramı, fəal-interaktiv təlimin tətbiqi baxımından əlverişli deyildir. Təlim materiallarının çoxluğu ,onların tədrisinə ayrılmış saatların məhdudluğu səmərəli nəticənin əldə edilməsinə mane olur. Fəal-interaktiv təlimin digər nöqsanı isə qrup işinin təşkili ilə bağlıdır. Belə ki qruplardakı şagirdlərin heç də hamısı işə – qrup üçün müəyyənləşdirilmiş tapşırığın icrasına – fəal qoşulmur. Hər qrupda bir, yaxud iki uşaq işin bütün ağırlığını öz üzərinə götürür. Zəif şagirdlər fəallıq göstərmir. Qrupdakı şagirdlərin arasında vəzifə bölgüsünün aparılması pedaqoji ədəbiyyatda bu vəziyyət üçün çıxış yolu kimi göstərilir. Müşahidə etdiyimiz digər bir qüsur bu və ya digər bir qrupun nümayəndəsi öz işlərinin nəticəsi haqqında danışır, digər qruplar təlaş içində təqdimata hazırlaşır. Bu da onların dərs prosesindəki digər şagirdlərə qulaq asmalarına və nəticə çıxarmalarına manə törədir.

Yuxarı sinif şagirdləri yeni texnologiyalara çətinliklə alışırlar. Fərdi sorğuya alışan şagirdlərə cütlük şəklində, qruplarda işləmək çox çətin gəlir.

Ənənəvi təlimi bir kənara atmaq, tamamilə gərəksiz saymaq da düzgün deyil. Ənənəvi təlimdə həm bu gün, həm də sabah üçün faydalı çox sey var. Xüsusən ənənəvi təlim metodları, bəziləri anlaya bilməsə də fəal-interaktiv təlimlə yanaşı, çiyin-çiyinə yaşayır,fəaliyyət göstərir. Diqqət etsək görərik ki, fəal-interaktiv dərsin mühüm mərhələsi-motivasiya (sövqetmə) müəllimin şərhi, müsahibə metodlarının aparıcı mövqeyi ilə reallaşdırılır. Sonrakı mərhələdə fəal-interaktiv metodlar ənənəvi metodlarla dərsin informasiya mübadiləsi mərhələsində müsahibə yenə bir metod kimi mühüm yer tutur. Lakin bütün bunlarla yanaşı bu təlimi yanaşmanın həm güclü, həm də zəif cəhətləri var. Fəal-interaktiv təlimin tətbiqi prosesində mövzunu bir sıra hallarda bütövlükdə əhatə etmək mümkün olmur. Belə hallarda müəllimin yenidən monoloqa müraciət etdir. Bu onu göstərir ki, təlimdə çoxlu həcmdə bilik vermək cəhdindən birdəfəlik imtina edilməlidir. Hər gün 3-5 saat dərsi olan müəllim bütün dərslərini fəal -interaktiv təlim əsasında qurmaqda çətinlik çəkər. Hazırki şəraitdə bu,mümkün deyildir. Zəruri metodik köməkdən məhrum olan müəllimin buna fiziki cəhətdən gücü çatmaz. Bu, işin bir tərəfidir. İkinci tərəfdən ədəbiyyat fənnində, elə mövzular olur ki, onların tədrisində fəal-interaktiv təlimin tətbiqi nəticə vermir. Məsələn, ədəbiyyatımızın klassik dövrünün tədrisində ənənəvi təlimə daha tez-tez müraciət olunmasına ehtiyac yaranır. Bu, elə gələcəkdə də, müəllimlərimiz fəal-interaktiv təlimlə əlaqədar metodik ədəbiyyatla təchiz olunanda da belə olacaqdır. Deməli, təlim texnologiyalarının heç birinin bir—birindən ayrı təəsəvür etmək doğru olmaz . Əsas vəzifə müəllimin dərsdə hansı texnologiyanın tətbiqinin daha faydalı olduğunu müəyyənləşdirməkdir. Lakin bu məsələdə müəllimin özünün yaradıcı işləməyə meyilli olması, axtarışlar aparması, həssaslığı və işgüzarlığı daha önəmlidir.

Ədəbiyyat dərsində fəal-interaktiv təlim metodları ilə Mir Cəlalın satirik hekayələrindən olan "Bostan oğrusu" hekayəsinin tədrisi məsələlərini nəzərdən keçirək.

"Bostan oğrusu" adlı hekayəsində mənfəətpərəstliyin nəticə etibarı ilə başqasının hesabına tüfeyli həyat tərzində yaşamağa gətirib çıxardığı təsvir edilib.Bu hekayədə təsvir olunan bostan oğruları kimlərdir?Doğma qardaşlar!(1,67)

Əgər ədib bu əsərdə adi bir adamın maddi ehtiyac üzündən oğurluq etməyini təsvir etsəydi,bu adamin vəziyyəti ciddi planda yazılmış hekayə üçün həyat materialı olar və onun bu güzaranı ilə bağlı bəzi məsələlər bizi düşündürürərdi. Lakin burada oğurluq edən qardaşların niyyətləri və hərəkətləri gülüncdür. Özü də onların bir-birlərindən oğurluq etmələri təkcə tamahkarlıq nəticəsində deyil. Durmuş öz taleyindən narazılığını və oğurluq etməsinin əsas səbəbini ata-babasından qalan mirasın qardaşına verilməsi ilə əsaslandırır. Əsərdə məlum olur ki, Kərbəlayı Tapdıq mirasın çox hissəsinə rüşvət yolu ilə sahib olmuşdur. Buna görə də Durmuş "Atadan mənə bir çatı da düşmədi boğazıma salım"-onun bu sözlərində mirasdan məhrum edilmiş bir adamın kin və nifrəti də əks olunmuşdur. Tamahkarlıq, varlanmaq ehtirası, xüsusi mülkiyyət əhvalı-ruhiyyəsi qardaşlar arasındakı mehribançılıq, səmimiyyət kimi hisləri məhv etmişdir.

"Bostan oğrusu" hekayəsinin sujet xəttində əhvalatın gedişini ləngidən təfərrüat yoxdur.Vəziyyətin təsvirini təbii dialoq,daxili ailəmin real təbəssümü əvəz edir.Təsvirdəki əlvanlıq təəssüratın tez-tez dəyişməsinə səbəb olur.Bu hekayədə Mir Cəlal hadisənin təbiiliyini sujetin əyləncəli, gözlənilməz olmasına qurban verir. Belə ki, qardaşların oğurluq niyyəti hekayənin ekspozisiyasında oxucuya məlumdur. Buna baxmayaraq əhvalatın sonrakı təsviri maraqla izlənilir. Çünki qardaşların insani keyfiyyətləri tədricən, hərəkət və fəaliyyət prosesində açılır. Bu xüsusiyyət "Bostan oğrusu"nun maraqla oxunmasına, əsərdəki ideyanın tamamilə aşkara çıxarılmasına kömək edir.

Əsərin məzmununa nəzər saldıqdan sonra bu əsərin tədrisi ilə bağlı bir neçə məsələyə aydınlıq gətirək.

Mövzu: Mir Cəlalın "Bostan oğrusu"hekayəsinin məzmunu üzərində iş.

Məqsəd:

-Hekayənin məzmununun mənimsənilməsi;

-Yaradıcı təfəkkürün inkişaf etdirilməsi;

-Kollektivlə işləmək bacarığının formalaşması;

-Şagirdlərin müasir təhsil sistemi ilə bağlı fikirlərini öyrənmək.

İş forması: Qruplarla iş

Metod , priyom və iş növləri : müəllimin izahı, klaster (şaxələndirmə), karusel, əqli hücum.

Təchizat: Mir Cəlal. Seçilmiş əsərləri. II cild. Bakı. “Şərq qərb” . 2005.

Motivasiya mərhələsi: Bu mərhələdə mövzunun adını şagirdlərə tapdırmaq üçün müxtəlif üsullardan istifadə etmək olar. Şagirdlərə əvvəlcədən hazırlanmış slayd materialı təqdim edilir.

Şagirdlərin sənətkar haqqında fikirlərini bilmək üçün klaster üsulundan istifadə etmək olar.Bu zaman şagirdlərə belə bir sualla müraciət olunur: Mir Cəlalı sənətkar kimi necə səciyyələndirmək olar? Onun hansı əsərləri ilə tanış olmusunuz? Müxtəlif fikirlər səsləndirilir.Mərkəzi dairədən Mir Cəlalın adı qeyd olunur.Yeni dairələrdə isə şagirdlərin səsləndirdiyi fikirlər qeyd olunur: yazıçı, ədəbiyyatşünas, professsor, Azərbaycan yazıçılar birliyinin üzvü, nasir, filologiya elmlər doktoru və s qeyd edilir.Daha sonra şagirdlərə bu gün tədris olunacaq mövzunun adı açıqlanır: ”Mir Cəlalın “Bostan oğrusu” hekayəsi”. Hekayənin məzmununun az olduğu nəzərə alınaraq sinifdə oxusu təşkil edilir.Bunun üçün təxmini 15 dəqiqə vaxt kifayət edər. Vaxt bitdikdən sonra isə şagirdlərin əsər haqqında təəssüratlarını öyrənmək üçün “əqli hücum”dan istifadə olunur.Şagirdlərə bu suallar ünvanlanır: Əsərdə nədən bəhs olunur? Əsərin əsas qəhrəmanı kimdir? Sizcə müəllifin bu mövzunu seçməsində məqsəd nədir? Bu gün bu mövzu aktualdırmı,bu haqda fikirləriniz? Suallar cavablandirildiqdan sonra isə şagirdlər tərəfindən mənimsənilmə səviyyəsi bəlli olur. Bundan sonra şagirdlər qruplara bölünür. Şagirdlərin qarşısına belə bir tədqiqat sualı qoyulur: Tamahkar insan necə olur? Tamahkarlıq insana xeyir gətirə bilərmi?

Fikirlərinizi əsərdən nümunələr gətirərək əsaslandırın. Bu mərhələdə karusel üsulundan istifadə olunur. Sinif bir neçə qrupa bölünür. Hər qrupa eyni tapşırıq verilmişdir. Tapşırığın yerinə yetirilmə vaxtı elan olunur. Qruplar işi yekunlaşdırır və müəllim elan edir ki, hər qrup öz işini saat əqrəbinin tərsi istiqamətində yaxınlıqda yerləşən digər qrupa ötürsün. Qruplar vərəqi alan kimi qeyd olunan fikirlərə öz əlavələrini edir və təkrar fikirlərin yazılmasına yol verilmir. Sonda iş vərəqləri liderlər tərəfindən təqdim edildikdə əlavələrə də münasibət bildirilir.

Bütün qruplar bir-birlərinin işlərinin məzmunu haqqında təsəvvür qazanırlar. Qrup liderləri təqdimat zamanı öz qruplarının işini sinfə təqdim edirlər. Digər şagirdlər qrup liderlərinə suallarla müraciət edə bilirlər. Bu mərhələdə müəllim şagirdləri bir-birlərinə qulaq asmağa səfərbər etməlidir. Beləliklə, qrupların işləri ilə tanış olduqdan sonra əldə etdiyimiz bilikləri ümumiləşdiririk.

Məlumatın müzakirəsi və təşkili: Bu mərhələdə təqdim olunan işlərə nəzər salınır. Fərqli cəhətlər müəyyən olunur, yekun bir rəyə gəlinir.

Müəllim sinfə müraciət edir. Bu hekayədən nə nəticəyə gələ bildik? Əsərlə bağlı əhatəli bilik qazanan şagirdlər müəllimin yekun sözünə ehtiyac olmadan nəticə çıxarırılar. Şagirdlərin fikirləri əsasən belə olur:

1. Yazıçı bizi yaxşı əməllərə çağırır.
2. Yazıçı bizə tamahkarlığın ən pis üzünü göstərir.
3. Yazıçı bizləri ailəmizlə mehribanlığa, sədaqətliliyə çağırır.

Nəticələrin çıxarılması mərhələsi yeni biliyin əldə olunması özünü göstərir. Motivasiya mərhələsindəki tədqiqat sualı və ona dair irəli sürülmüş fərziyələr tutuşdurulur. Əldə olunan məlumatlar ümumiləşdikdən sonra isə yaradıcı tətbiqetmə mərhələsinə keçirilir. Dərsin məzmununa uyğun müəllim tərəfindən sagirdlərə əsər haqqında bir şeir parçası, hekayə, aforizm və s. tapşırılır. Bütün bunlardan sonra refleksiya mərhələsi vardır ki, burada məlumatın biliyin əldə olunması yollarına nəzər salınır.

Sonuncu mərhələ isə qiymətləndirmə mərhələsidir.Qiymətləndirmə üçün aşağıdakı meyar cədvəlindən istifadə olunmalıdır.

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Dərsə fəaldır. | | | | |
| Öz fikirlərini ifadə edə bilir. | | | | |
| Yoldaşlarını dinləyir və suallar verir. | | | | |
| Əhəmiyyətli əlavələr edir. | | | | |
| Dərsə həvəslə yanaşır. | | | | |
| Ümumi nəticə | | | | |

Qrup işindən asılı olaraq meyarların qarşısında “+”,”-“ işarələri qoyulur.

Deyilənlərdən aydın olur ki, “Bostan oğrusu” hekayesi böyük diqqət və qayğı tələb edir.Əsərin digər bir təhlilini Venn diaqramı ilə verə bilərik.Venn diaqramında məqsəd:

•Cisim və ya hadisələri müqayisə etmək və onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək;

•Biliklərin aktuallaşması;

•Təhlil proseslərinin inkişafı;

•Qiymətləndirmə prosesinin inkişafı.

Alqoritm:

•Müqayisə olunacaq cisim və hadisələrin müəyyənləşdirilməsi;

•Kəsişən dairələrin çəkilməsi (ortada yazmaq üçün yer saxlamaq)

•I və II dairədə müqayisə olunacaq obyekləri qeyd etmək;

•Şagirdlərə təlimat vermək (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı deyilir);

•Müqayisə olunan obyektlər təsvir olunur: fərqli cəhətlər sol və sağ tərəfə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur;

•Müqayisə nəticəsində şagirdlər ümumiləşdirmə aparırılar.(74,84)

“Bostan oğrusu” hekayəsini Venn diaqramı ilə tədris etdiyimiz zaman iki doğma qardaş olan Durmuş ilə Kərbalayı Tapdığı müqayisə edirik. Qardaşlar arasında olan oxşar və fərqli cəhətləri qeyd edirik.

Burada A dairəsinə Durmuşun fərqli xüsusiyyətləri, B dairəsinə isə Kərbəlayı Tapdığın fərqli xüsusiyyətləri əks olunur. Kəsişmə hissəsinə isə oxşar xüsusiyyətləri qeyd ediləcək. Müəllim şagirdlərdən gələn cavabları dairədə qeyd edir. Şagirdlərin fikirləri təkrara yol verilmədən dairədə yazılır. Beləliklə A dairəsində bunları qeyd ede bilərik: Durmuş ata və babasının sanki bir növ intiqamını alır. B dairəsində isə Kərbəlayı Tapdığın xüsusiyyətləri qeyd olunur: O,var-dövləti hər şeydən çox düşünür. Ulduzları belə bir umid qızıl deyə görür və istəyir. Oxşar cəhətlərinə gəldikdə isə: hər ikisi öz qazdıqları quyuya özləri düşürlər.

Bu obrazların müqayisəli təhlilini konseptual cədvəllə də verə bilərik. Konseptual cədvəl də müqayisə olunan obyektlər müəyyən edilir və sütunun birində yazılır.

Digər sütunda isə onların hansı keyfiyyətlərinə görə müqayisə etmək lazım gəldiyi qeyd olunur. Nümunə kimi cədvəli təqdim edirik:

| Müqayisə ediləcək obrazlar | Şəxsi keyfiyyətlər | Qardaşına olan münasibəti |
|---|---|---|
| Durmuş | | |
| Kərbəlayı Tapdıq | | |

### 3.3. Mir Cəlal hekayələrinin orta məktəbdə yeni interaktiv təlim metodları ilə tədrisi

Orta məktəb üçün proqram hazırlanarkən ədəbiyyatımızın geniş imkanları nəzərə alınır. Şagirdlərin mənəvi aləminin zənginləşməsində, dünyagörüşün genişlənməsində əhəmiyyətli olacaq mövzular müəyyənləşdirilir.

İnteraktiv metodlarla qurulan dərs ənənəvi dərsdən onunla fərqlənir ki, burada uşaqlar özləri biliyi əldə edir, müstəqil çalışaraq, axtararaq bilik qazanır. Şagirdlər təlim prosesinə fəal cəlb olunurlar. Müəllim isə daha çox istiqamət, məsləhət verir, o bələdçi rolunu oynayır. Sinifdəki iqlim uşaqların sərbəstləşməsinə, müstəqilliyinə, fəallığına səbəb olur, uşaqlar öz fikirlərini sərbəst söyləyə bilirlər. İnteraktiv dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir, uşaqlar biliklərə yiyələnir, tədris proqramı zərər çəkmir.

İnteraktiv təlimin əsas üstünlüyü - real idrak motivasiyasının yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Məlumatlar “hazır” şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır.

Əgər şagird öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və möhkəm mənimsəyir.

İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Təlimin səmərəliliyi xeyli artır. Bunun aşağıdakı səbəblərini göstərmək olar:

- şagirdlərin idrak fəaliyyəti və təlim motivasiyası hesabına;
- təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində.

Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu müəllim üçün dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metod şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal interaktiv təlim həm təlimin məzmununun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Şagirdlərin öyrənməyə həvəsi və nailiyyətləri artdıqca, müəllimin də fəaliyyəti yüngülləşir. Lakin bu o demək deyil ki, müəllimin zəhməti azalır. İnteraktiv təlim əslində dərsin hazırlanması və idarə edilməsi üçün müəllimdən böyük zəhmət, işgüzarlıq və yaradıcılıq tələb edir.

Bunu da qeyd edək ki, interaktiv təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək məsləhət görülmür. Dərsdə qarşıya qoyulmuş məqsəd, şagirdlərə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, şagirdlərin hazırlığı, yerli şərait, məktəbin maddi bazası və s. nəzərə alınmaqla interaktiv priyomlara müraciət edilməlidir.

Bəzən müəllimlərdən eşitmək olur: "Biz yaxşı dərs deyirik, amma şagirdlərin marağı yoxdur". Təcrübələr göstərir ki, maraq biliyin necə təqdim olunmasından asılıdır. Uşaqların biliyi artdıqca, daha çox şey bilməyə can atır, öyrənməyə həvəsi və marağı olur, araşdırmalar aparırlar. Təcrübəli müəllimlər, pedaqoqlar bildirirlər ki, oxumaq istəməyən, maraqlanmayan uşaq yoxdur. Uşaq doğulandan ətraf aləmi öyrənməyə, dərk etməyə can atır və onlarda hər şeyə maraq olur.

İnteraktiv metodlarla keçilən dərslərdə şagirdlərdə hər şeyi bilmək həvəsi, təşəbbüskarlıq yüksəlir, onların öyrənmə fəallığı, təlimin keyfiyyəti və səmərəliliyi artır, nəticədə mexaniki yaddaş deyil, yaradıcı təfəkkür inkişaf edir.

İnteraktiv təlim bilik, bacarıq, təcrübə və vərdişlərə yiyələnməyə, cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual təfəkkürün, müstəqil çalışma, müstəqil düşünmə bacarıqlarının inkişafına kömək edən demokratik üsullarla aparılan təlim prosesidir.

İnteraktiv təlim prosesində dərsdə yaranan, meydana çıxan şagirdlərarası öyrənmə-öyrətmə ünsiyyəti və əməkdaşlığı, müəllim-şagird birliyi və əməkdaşlığı nəzərdə tutulursa, interaktiv metodlar isə təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq və keyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələr nəzərdə tutulur.

İnteraktiv təlim prosesində ilk baxışdan elə görünə bilər ki, müəllim sinifdə fəal rol oynamır. Əslində isə müəllim şagirdi ruhlandıran, ona özünü tapmaqda kömək edən "yaradıcıya" çevrilir.

İnteraktiv metodlar müəllimin təkcə başqalarını öyrətməsinə deyil, onun özünün də öyrənməsinə, daha yaradıcı və enerjili pedaqoq olmasına imkan verir.

İnteraktiv təlim metodları həmçinin sinif otağının həmişəki tərtibatından, məşğələlərin təşkilinin adət etdiyimiz qaydasından imtina olunmasını tələb edir. Şagird masalarının sinif otağında yerləşdirilməsinin dörd əsas forması vardır:

1. "Sinif" forması – ənənəvi qayda .
2. "Kafe" forması ("diskussiya klubu").
3. "Ü" hərfi formasında sinif.
4. "Dairə" formasında sinif.

"Kafe" forması qruplarda iş üçün əlverişlidir.

"U" hərfi forması rollu oyunlar zamanı, tanışlıq vaxtı, diskussiyaların gedişində daha səmərəlidir.

"Dairə" forması müxtəlif diskussiyaların, dairəvi masaların keçirilməsi üçün daha rahatdır.

İstifadə olunan bütün üsullar aşağıda verilmiş komponentlərdən ibarət olan təlim prosesinin qanunauyğunluqlarından irəli gəlir:

a) təlimin məqsədi,

b) təlimin məzmunu,

c) şagirdlərin dərketmə imkanları,

ç) müəllimin öyrətmə fəaliyyəti və şagirdlərin öyrənmə işi, təlimin təşkilati forması və s.

d) təlimin nəticəsi.

Bütün bu komponentlər qarşılıqlı surətdə əlaqəlidir və təlim prosesində vəhdətdə çıxış edirlər. Onlar sabit və təkrarlanandır. Buradan belə bir vacib tələb ortaya çıxır-hər hansı təlim üsulları, vasitələri və formalarının müəyyənləşdirilməsi və tətbiqi zamanı bu komponentlərin qarşılıqlı əlaqəsini nəzərə almaq zəruridir. Müəllim bu əlaqələrin bütün dərs prosesi boyu mövcud olduğunu yaddan çıxarmamalıdır. Bunu nəzərə almadan istənilən nəticəni əldə etmək qeyri-mümkündür.

Klassik və çağdaş ədəbiyyatdan seçilən həmin mövzularda vətən məhəbbəti, valideynə hörmət, əməyə rəğbət və başqa ideyaların aşılanması əsas götürülür.

Orta məktəb də Mir Cəlalın yazmış olduğu əsərlər tədris olunmaqdadır. Nə üçün Mir Cəlal əsərləri orta məktəbdə tədris olunmalıdır kimi sual qoyulmuş olsa, ona cavab tapmaq o qədər də çətin olmaz. Ona görə Mir Cəlalın əsərləri tədris olmalıdır ki, o şagirdlərə hər cür yaxşı, müsbət keyfiyyətləri aşılaya bilir. Onun yazmış olduğu hekayələrə nəzər saldıqda görürük ki, həyatda elə bir məsələ yoxdur ki, Mir Cəlal öz əsərində o məsələyə toxunmamış olsun. İstər tərbiyəvi mövzu da, istər vətənpərlik, istər ailə məsələləri olsun, ən cuzi məsələlərdən tutmuş, ən mürəkkəb məsələlərə yolunu salmışdır.

Orta məktəb dərsliklərinə nəzər yetirsək görürük ki, Mir Cəlal hekayələri VI sinif və IX sinif dərsliklərində verilib.

Mir Cəlalın "Dərsimi yaz" nəqletmə xarakterli hekayəsi IV sinif ədəbiyyat dərsində keçirilən mövzulardandır. Bu əsər Zahid Xəlilin "Zeynalabdın" əsəri ilə birlikdə keçirilir. Bu zaman şagirdlərə hər iki əsər arasındakı fəqli və oxşar əsərləri müəyyənləşdirmək tapşırılır. Bu bacarıq əsərin mahiyyətini dərk etmək üçün əhəmiyyətlidir.




Bu Venn dioqramı ilə iki hekayə arasındakı fərqli və oxşar cəhətlər qeyd edilir. Bu dərsin şagirdlər tərəfindən daha yaxşı mənimsəməsi üçün ən yaxşı metodlardan sayılır.

Mir Cəlalın "Dərsimi yaz" hekayəsinin tədrisinə ayrıca baxıldıq da, onu bir çox metodlarla tədris etməyin məqsədəuyğun olduğu aşkar edilir. Bu metodlar beyin həmləsi, müzakirə metodu, esse və sair metodlardan dərs prosesi zamanı istifadə etmək olar.

Mir Cəlalın "Dərsimi yaz" hekayəsinin tədrisi

Mövzu: "Dərsimi yaz" hekayəsinin təhlili

Məqsəd:

- Hekayənin ideya bədii xüsusiyyətlərinin mənimsədilməsi
- Yaradıcı təfəkkürün inkişaf etdirilməsi
- Kollektivlə işləmə bacarığı

İş forması: kiçik qruplarla iş

Metod,priyom və iş növləri: müəllimin izahı, müzakirə, problemin həll edilməsi, əqli hücum

Problemli vəziyyətin yaradılması və qoyuluşu: Müəllim ilk növbə də əsərin həcmi kiçik olduğundan onu sinifdə şagirdlərə oxudaraq tanış eləyir. Hər bir şagird əsər ilə tanış olduqdan sonra müəllim müzakirə metodu ilə onlara bir neçə suallar ilə müraciət edir: "Sizcə, Tofiq haqlı idi?" , "Bu hekayədə günahkar kimi görürsünüz?" , "Tofiqin başına gələnlərdən sonra nə qərarına gəldiz?" , "Sizin ev tapşırıqlarınıza kim kömək edir?" və s.

Şagirdlər fərqli cavablar verir, öz fikirlərinə aydınlıq gətirirlər. Daha sonra müəllim düz cavabları səsləndirir. Bu hekayədə hər bir şagirdin öz fərdi düşüncə tərzi mövcuddur.

Müəllim cavabları dinlədikdən sonra düzgün cavaba yaxın olan cavablar seçilir, müəllim düzgün cavabları düzəlişlər edərək cavablandır.

Başqa bir metodla dərsi daha səmərəli keçirmək olar. Bu metod beyin həmləsi metoddur. Müəllim həll olunası problemi deyir. Tədqiqat sualı qoyur. "Tofiqin sonda bu vəziyyətə gəlib çıxmağında günahkar kimi görürsünüz? Fikrinizi ətraflı aydınlaşdırın"

İdeyaların aparıcısı, yəni generator seçilir. Bu həm şagird, həm də müəllim özü ola bilər. Müəllim şagirdlərə tapşır ki, tədqiqat haqqında fikirləri qısa zaman kəsiyində konkret ifadələrlə bildirsinlər. Bütün qrup bu problemin həllinə cəlb edilir. Qısa müddətdə söylənilən bütün fikirlər generator tərəfindən lövhədə qeyd edilir. Daha sonra bütün deyilmiş fikirlər təhlil edilir. Aparıcı ideyaları bir daha gözdən keçirərək yekunlaşdır. Şagirdlər artıq söylənmiş fikirləri tənqidi təhlil edir, qiymətləndirir, mübahisə və əks mübahisə aparırır. Şagirdlər müzakirə edilmiş problemin həlli üçün orijinal və ən yaxın ideyaları seçirlər.

Bu mərhələ kiçik qruplarla da aparıla bilər. Müəyyən olunmuş meyarlara görə sinif qruplara bölünür. Hər bir qrup müzakirə edərək öz fikirlərini cəmləşdirir,ortaq nəticəyə gəlirlər. Daha sonra bu fikirlər digər qruplara çatdırılır.

Beyin həmləsi metodu maksimum 10-15 dəqiqə vaxt alır.

Orta məktəbin IX sinif dərsliyində Mir Cəlalın "Vətən yaraları" hekayəsi tədris edilir. Bu hekayəyə dərs zamanı 3 saat vaxt ayrılır. İndi isə tədrisi üsullara nəzər yetirək.

Mövzu: Mir Cəlal. Vətən yaraları -3 saat

Məqsəd:

- Hekayənin ideya bədii xüsusiyyətlərinin mənimsədilməsi
- Yaradıcı təfəkkürün inkişaf etdirilməsi
- Kollektivlə işləmə bacarığı

İş forması: kiçik qruplarla iş

Metod,priyom və iş növləri: müəllimin izahı, müzakirə, problemin həll edilməsi, əqli hücum

Dərsin gedişi

Motivasiyanın yaradılması və problemin qoyuluşu: Motivasiyanı müxtəlif yollarla yaratmaq mümkündür. Məsələn, İkinci Dünya müharibəsinə aid məlumatlar söyləməklə, filmlərdən kadrlar göstərməklə, ya da "Yada salın" başlıqlı suallarla müzakirə apararaq yaratmaq olar. "Müharibə mövzusunda yazılmış başqa hansı əsərlə tanışsınız? Belə əsərlər sizdə hansı hissləri yaradır?" və sair suallar ola bilər. Müharibələrin bəşəriyyətə gətirdiyi fəlakətlərdən danışılır. Bundan sonra da tədqiqat sualı yaradılır.

Tədqiqat sualı: Niyə İkinci Dünya müharibəsində həlak olan insanların xatirəsi indi də əziz tutulur? Müəllim şagirdlərin fərziyələrinə qulaq asır, təkrara yol vermədən lövhədə fikirlər təkrarlamadan qeyd edilir.

Tədqiqatın aparılmasına ilk iki hissənin oxunması ilə başlanılır. Müəllim sinifin səviyyəsindən aslı olaraq oxu növünü müəyyənləşdirir. Oxu bitdikdən sonra şagirdlərin cavablarında üst-üstə düşənləri qruplar şəklində ayrılırlar. Qruplarda söylənilən cavablar ümumiləşdirilir və dəqiqləşdirilir. Fikirlər vahid şəkildə formalaşdırılır. Bundan sonra məlumat mübadiləsi və müzakirə reallaşdırılır

Məlumat mübadiləsi və müzakirə: Bu mərhələdə, qrupların bir-birinin işlərindən ətraflı məlumatları olur. Mübahisə doğuran məqamlar müzakirə olunur. Əsgərin döyüşə atıldığı və yaralandığı zamankı hislər, fikirlər ciddi müzakirəyə səbəb olur. Müzakirə zamanı mübahisəli görünən məsələlərə aydınlıq gətirilir. Müəllim müzakirəni elə yaradır ki, şagirdlər müharibənin insan duyğuları üçün pis tərəfini göstərməyə çalışır.

Daha sonra, dərslikdə göstərilən tapşırıqların yerinə yetirilməsinə vaxt ayrılır. Bu tapşırıqlar, şagirdlərin dərsi mənimsəmələrinə və şifahi nitqlərinin inkişafına kömək edir.

Qiymətləndirmə: Formativ qiymətləndirmə üsulu ilə aparılır.

Qiymətləndirmə meyarı: Aydınlaşdırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən,nisbətən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |

Bu qiymətləndirmə meyarından başqa digər qiymətləndirmə meyarlarından istifadə edilə bilər.

Sonda müəllim dərslikdəki tapşırıqların evdə yerinə yetirmələrini şagirdlərə tapşırır.

Mövzu: Mir Cəlal. “Vətən yaraları”- 3 saat

İkinci saat: Əsərin məzmunu üzərində iş

Dərsin gedişi

Müəllim hekayənin evdə oxunan hissəsinin məzmununun və tanış olmayan sözlərin mənalarının hansı səyivvədə öyrənildiyi fərqli yollarla müəyyən edir. Şagirdlərə evdə oxuduqları 3, 4 və 5-ci parçalardakı bədii təsvir və ifadə vasitələrin tapılması tapşırılır. Hər bir şagird ayrıca əsərin məzmunu haqqında bir sual hazırlamaq təklif edilir. Sualları məzmun baxımdan oxşar olan şagirdlər qrup yaradırlar, fikirlərini dəqiqləşdirirlər və son nəticəni digər qruplarla müzakirə edirlər. Fikirlər təqdimat formasında aparılır. Bu mərhələ tədqiqatın aparılması mərhələ adlanır.

Məlumat mübadiləsi və müzakirə: Qruplar öz işlərini təqdim edir və bir-birlərinin işlərinə bələd olurlar. Bu zaman bədii təsvir və ifadə vasitələrinin hansı səviyyədə qavranıldığı anlaşılır. Müəllim müzakirə zamanı istiqamətləndirəcək suallar verərək dərsin səmərəli keçməyinə nail olur.

Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması: Şagirdlər öz fikirlərini, azərbaycanlı əsgərlərin faşizmə qarşı mübarizəsini tarixi bir zərurət kimi əsaslandırılar. Onlar belə fikirləşirlər ki, əsgərlərimiz doğma yurdumuzdan ayrı olsalar da, döyüşlər də

faşizmə qarşı mübarizədə yüksək əzm və şücaət göstərmişlər. Həmvətənlərimiz bəşəriyyəti faşizm bəlasından qorumaq üçün canlarından keçmişlər. Müharibə də həlak olmuş qəhrəmanlarımızın xatirəsi ona görə də hal-hazırda əziz tutulur.

Nəticələrə yenidən baxılır və yekun qərar qəbul olunur. Sonda tədqiqat sualı ilə səsləşən cavablara diqqət yetirilir.

Dərslikdə göstərilmiş “Bilik və bacarıqlarınızı tətbiq edin” başlıqlı tapşırığın icrasına vaxt ayrılır. Müəllim şagirdlərin hər birinin bilik və bacarıqlarına bələd olması üçün bu tapşırıq fərdi tapşırılır. əgər vaxt çatışmarsa, onda kiçik qruplarla icra edilməlidir. Bu cür yolla müəllim qrupdakı bütün şagirdlərin fəaliyyəti barədə aydın təsəvvür yaratmağa imkan tapır.

İşin icrasına ayrılmış vaxt bitdikdən sonra təqdimatın dinlənilməsi və müzakirəsi başlanır. Müzakirədə bütün şagirdlər fəal iştirak etməlidir. Müəllim bütün şagirdlərin fəallığını nəzarətdə saxlamalıdır.

Qiymətləndirmə. Formativ qiymətləndirmə aparılır. İstəyə uyğun olaraq cədvəllərdən də istifadə edilə bilər.

Qiymətləndirmə meyarı: Müəyyənləşdirmə

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii təsvir və ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii təsvir və ifadə vasitələrini, əsasən, müəyyənləşdirir. | Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

Bu qiymətləndirmə meyarından başqa digər qiymətləndirmə meyarlarından istifadə edilə bilər.

Mövzu: Mir Cəlal. “Vətən yaraları” – 3 saat

Üçüncü saat: Təhlil üzrə iş

Dərsin gedişi:

Motivasiya, problemin qoyuluşu. Motivasiyanın yaradılması üçün fərqli metod və üsullardan istifadə olar. Məsələn, dərsdə həm İkinci Dünya müharibəsi, həm də yurdumuzun məruz qaldığı Qarabağ müharibəsini əks etdirən görüntüləri göstərərək motivasıya yarada bilərik. Digər bir üsul isə dərslikdəki "Düşünün" başlıqlı sual, yəni "İkinci Dünya müharibəsi illərində yazılmış bədii əsərlərin müasir oxucu üçün əhəmiyyəti nə ola bilər?" sualı ilə müzakirə aparılır. Daha sonra tədqiqat sualı müəyyənləşir.

Tədqiqat sualı: Müharibədə ədalətli şəkildə qalib gəlməyin şərtləri hansılardır? Söylənilən hər bir fikir lövhədə qeyd edilir. Bu fikirlərin yoxlanılması üçün araşdırmalar aparılır.

Digər təlim metodlarının və iş formalarının təşkili ilə də tədqiqatı aparmaq mümkün olardı. Hər bir halda dərslikdə verilmiş olan "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığını şagirdlərə tapşırmaq lazımdır.

Müəllim kiçik qruplarla iş formasını seçir. Bu zaman müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıqların suallarından hər bir qrup üçün iş vərəqləri hazırlayır. Müəllim bu zaman bələdçilik funksiyasını həyata keçirir. Lakin qrup işlərini müşahidə edən müəllim istənilən zaman şagirdlərə yönəldici suallar verərək şagirdlərə dəstək edir. Əsas məsələ burasındadır ki, şagirdlər icra etdikləri tapşırıqları dərk etmiş olsunlar.

Şagirdlər hekayənin mənasını aydın başa düşməli, müəllifin çatdırmaq istədiyi hissləri anlaya bilməlidir. Məsələn, əsgər obrazının xarakterinin cəhətlərini aydınlaşdırmalı olan qrup şagirdləri onun mənəvi aləmini, düşüncəsini, həyat fəlsəfəsini yaxşı bilməlidir. Bu zaman şagird öz fikirlərini nümunələrlə açıqlamalıdır.

Məlumatın mübadiləsi və məlumatın müzakirəsi mərhələsində düşmənlə mübarizədə olan əsgərlərimizin qəhrəmanlıq və dözümlülük göstərməyə sövq edən amillərdən danışılır.

Digər bir sual "Hekayədə yazıçını narahat edən ən əsas səbəb nədir? Müəllif problem həllini nədə görür?" Müəllimin bu tədqiqat sualı seçməyindəki məqsəd insanların həyatını məhv edən müharibənin təhlükəli tərəflərini aşkara çıxarmaqdır. Bu müzakirə zamanı şagirdlər hər biri problemin müxtəlif səbəblərini: yarımçıq qalan ömürlər, yetim qalan

körpələr, övlad itirmiş analar və s. açıqlaya bilərlər. Müəllim bu deyilmiş olan fikirləri ümumiləşdirərək problemi aşkara çıxarmağa çalışır.

Şagirdlər əsgər obrazını təhlil edərkən verilən cavabların müzakirəsi müharibə şəraitində yaşayan ölkənin gənc oğullarını vətənpərvərlik ruhunda tərbiyələndirməkdir.

Digər bir tapşırıq isə hekayəni növ və janr baxımından oxuduğunuz bir dram əsəri ilə müqayisə edilməsidir.

Digər bir tapşırıq isə hekayədə bədii təsvir və ifadə vasitələrinin işləndiyi yerlərin müəyyən edilməsidir. Məsələn, epitet (...anamın isti nəvazişlərinə tutulum), təşbeh (... bu atılan güllələrin biri də mənəm, gurultunu qopardan da mənəm, gündüzün boz və kəsif üfüqlərinə bir bayraq kimi açılıb-örtülən alov da mənəm), metafor (Uca çinarlar, yaşıl təpələr başəyərək, cəbhədən gələn oğullarını salamlayır, cəbhəyə gedən oğullarına xeyir-dua verir), təzad (Yıxıla-dura yeriyim, ağı qaradan, şirini acıdan, istini soyuqdan seçən,qayğısız körpəlik günləri başlasın) və s. əsərə gətirdiyi bədii gözəllik müəyyən edilməklə yanaşı, onların emosional təsir gücü də qeyd olunmalıdır.

Nəticə,ümumiləşdirmə: Dərsin əvvəlki gedişatında həyata keçirilmiş işləri şagirdlər ümumiləşdirərək düşmənlə mübarizədə əsgərlərin ruh yüksəkliyinin, mənəvi keyfiyyətlərin rolunun böyük olduğu qənaətinə gəlirlər. Eyni məqsəd uğrunda mübarizə edən ordu düşməni asanlıqla məğlub edə bilərlər.

Çıxarılan nəticənin şagirdlərin söylədikləri fikirlərlə müqayisəsi edilir, bu fikirlərin tədqiqat sualı ilə nə dərəcə üst-üstə düşdüyü aşkarlanır.

Qiymətləndirmə: Formativ qiymətləndirmə aparılır.

Qiymətləndirmə meyarı: Müqayisəetmə

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Hekayəni janr (növ) baxımından dramla müqayisə etməkdə çətinlik çəkir. | Hekayəni janr (növ) baxımından dramla müəllimin köməyi ilə müqayisə edir. | Hekayəni janr (növ) baxımından dramla, əsasən, müqayisə edir. | Hekayəni janr (növ) baxımından dramla müqayisə edir. |

Bu qiymətləndirmə meyarından başqa digər qiymətləndirmə meyarlarından istifadə edilə bilər.

# N Ə T İ C Ə

Ədəbi irsi həmişə müasir olan Mir Cəlal Paşayev əsərlərində insanların qəlbinə asanlıqla yol tapmağı bacarmışdır. Ədibin yaradıcılığında sadəlik, ideya saflığı, yığcamlıq, sənətkar müşahidəsinin dərinliyi, yazıçı mədəniyyətinin yüksəkliyi, həyati motivlərin zənginliyi, yeri gələndə, hadisələrin yumor və satiranın hədəfinə çevrilməsi onun hekayələrini geniş xalq kütlələrinə sevdirmişdir. Yazıçı halal zəhmətli sadə insanları, bəşəriyyətin böyük zəka sahiblərini məhəbbət və ehtiramla tərənnüm etmiş, saxtakar və riyakarlara, millətin və cəmiyyətin inkişafına maneçilik törədən insanlara qarşı nifrət və qəzəbini açıq şəkildə göstərmişdir.

Azərbaycanda hekayə janrının inkişafında ədibin mühüm rolu tədqiqatçılar tərəfindən dəfələrlə qeyd olunub. Mir Cəlal görkəmli hekayəçidir, ədəbiyyatımızda bu janrın ən istedadlı nümayəndələrindəndir. Ədib yaradıcılıq dövründə Cəlil Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov kimi yazıçıların adı ilə bağlı olan ənənələri davam və inkişaf etdirib. Mir Cəlalın mövzu dairəsi genişdir.

Mir Cəlalın hekayələrində yeni insan yetişdirməkdə vacib olan məsələlər, mənəvi-əxlaqi amillər, valideyn-övlad, müəllim-şagird-tələbə münasibətləri öz ifadəsini geniş göstərmişdir. Ədib hekayələrində ailədə bir-birinə ehtiramı, ailə üzvlərinin bir-biri qarşısında məsuliyyət daşımalarını ən nəcib keyfiyyət hesab etmiş, ailəni cəmiyyətlə bağlayan mənəvi əlaqəyə xüsusi diqqət yetirmişdir. Yazıçı valideynlə övlad arasındakı doğmalığa, məhəbb ət duyğularına, övladın ailə qarşısındakı məsuliyyət hissinə hekayələrində etinasız yanaşmamışdır. Qarşılıqlı qayğı hissini dərk etməyən, ata-anaya ehtiram hissini itirən, ləyaqətdən məhrum olan haqsızlar ədibin hekayələrində amansız tənqid atəşinə tutulmuşdur.

Ədib nağıllarımızda olduğu kimi,hekayələrində halallığı təlqin edir, ədalət qanunlarından, düzlükdən söhbət açır. Halal haram üzərində, xeyirin şər üzərində qələbəsi barədə çox oxumuşuq və eşitmişik. Xalq ədəbiyyatı millətimizi həmişə belə tərbiyə etmişdir. Mir Cəlalın daxili aləmi, zəngin mənəviyyatı da belə dəyərlərdən qaynaqlanmışdı. Lakin tariximizin bütün dövrlərində olduğu kimi, Mir Cəlalın da yaşadığı

cəmiyyətdə halal-haram meyarlarını dolaşdıranlar az olmamışdı. Bunun da səbəbi odur ki, heç kim valideyn övladını əliəyri, yalançı, namərd görmək istəməz.

Mir Cəlal cəmiyyətə və xalqa layiqli övlad tərbiyə etməyi həmişə böyük, nəcib və məsuliyyətli iş saymışdır. Ona görə də yazıçı, tərbiyə işinə laqeyd yanaşanlara, övlad-valideyn münasibətlərini pis hala salanlara, müqəddəs ailə dəyərlərinə zərər gətirənlərə qarşı sərt mövqedə olmuşdur.

Ədib təsvir etdiyi həyatın müxtəlif sahələrini müşahidə etməyi, aşkara çıxarmağı, eyni bir mövzuya dəfələrlə yenidən, həm də yeni bir münasibətlə dönə-dönə qayıtmağı, onun "açılmamış sirlərini" kəşf etməyi sevən, başqa sözlə, leytmotivləri öz yaradıcılığında bir ənənə şəkilinə salmağa çalışan yazıçılardan idi. Bu xüsusiyyət təkcə hekayələrin mövzularında deyil, həmçinin dil, üslub, yazı manerasında da ardıcıl surətdə davam etdirmişdi.

Həyat həqiqətinə sadiqlik ədibin həqiqi vətəndaşlıq amalına çevrilmişdi. Tənqidçilər yazıçının yaradıcılıq keyfiyyətlərini hansı istiqamətdən təhlilə çəkmələrindən asılı olmayaraq həmişə bir fikirdə köklənirdilər: Mir Cəlal gözəl hekayələr ustadı idi. Onun hekayələrində həyatın hər iki qütbü həmişə özünü göstərirdi.

Yumor və satira Mir Cəlal yaradıcılığının əsas cəhətlərindən biridir. Onun ilk hekayələrində özünü göstərən, əsərdən-əsərə güclənən incə yumor böyük tərbiyəvi əhəmiyyətə malikdir. Ədib həyatın inkişaf sürətindən geri qalanlara, avamlığa gülür, yalançı və əliəyriliyi, şəxsi mənfəətini güdmək, xalq mənafeyinə laqeydlik kimi nöqsanları amansız satira atəşinə tutur.

İkinci Dünya Müharibəsi illərində yazıçının fəaliyyəti daha da güclənir. O, öz əsərlərində xalqın layiqli övladlarının vətənə məhəbbət və igidliyini, sədaqətini, qələbəyə inamını əks etdirən maraqlı hekayələr yazır. Müharibə illərində də o öz üzərində davamlı işləyib, əsərlərinin sənətkarlıq səviyyəsinə xüsusi fikir verib. Məhz buna görə də həmin əsərlər bu gün də əhəmiyyətini itirməyib.

Sözə insanın təfəkkür və hissinin, mədəni səviyyəsinin, hadisələrə münasibətinin ifadəsi kimi baxan yazıçının dilinin aydınlığı müdafiə etdiyi ideyanın dürüstlüyü ilə vəhdətdədir. Ədib həyatı, qələmə aldığı materialı yaxşı bildiyi üçün təfəkkürü də aydındır.

Buradan da dilin və formanın aydınlığı doğur. Mir Cəlalın əsərlərinin, xüsusilə kiçik hekayələrinin böyük müvəffəqiyyətinin sirri də bundadır.

Mir Cəlalın hekayələrində ideolojidən gələn mözvular, dövrü üçün xarakterik olan yeniliklə köhnəlik arasında mübarizə və s. o qədər də işlək deyil. O, hekayələrində insanın daxili aləminə nüfuz etməyə çalışır. İnsanın mənəvi-əxlaqi dünyasının sirləri – gözəllikləri və eybəcərliklərinə daha da artıq diqqət yetirir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Abdulla, Mahirə Gəncalı qızı. Əbədiyyət. An: məqalələr /M.G. Abdulla; red. A.Q. Abbasov.- Bakı: Adiloğlu, 2008.

2. Afət Süleymanova, Təranə Bağırova, İlhamə Muradova.Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün «Ədəbiyyat» fənni üzrə dərslik. Bakı, "Təhsil", 2016, səh. 208

3. Afət Süleymanova, Təranə Bağırova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı, "Təhsil", 2013, səh 224

4. Arif M. Qəzəbli hekayələr: [Mir Cəlalın antifaşist hekayələri haqqında] //Ədəbiyyat qəzeti.- 1941.- 11 dekabr.

5. Azərbaycan ədəbiyyatının tədrisi tarixindən /Camal Əhmədov; red K.Talıbzadə.- Bakı:Maarif, 1971.- 204 s.

6. Bilal Həsənli. Ədəbiyyatın tədrisi metodikası. Bakı, "Müəllim", 2011, 324 səh.

7. Bilal Həsənli, Soltan Əliyev, Nuriyyə Verdiyeva, Aynur Mustafayeva, Sədaqət Məmmədova. Ədəbiyyat müəllim üçün dərs vəsaiti. 8-ci sinif. Bakı, "Bakı Nəşriyyatı", 2005. Səh 208.

8. Bilal Həsənli, Soltan Əliyev, Nuriyyə Verdiyeva, Aynur Mustafayeva, Sədaqət Məmmədova. Ümumitəhsil məktəbləri 7-ci sinif üçün Ədəbiyyat fənni üzrə dəsrlik. Bakı, "Bakı Nəşriyyatı", 2014, səh.208

9. Bilal Həsənli, Soltan Əliyev, Nuriyyə Verdiyeva, Aynur Mustafayeva, Sədaqət Məmmədova. Ümumitəhsil məktəbləri 8-ci sinif üçün Ədəbiyyat fənni üzrə dəsrlik. Bakı, "Bakı-Nəşriyyatı", 2015, səh.208

10. Bilal Həsənli, Soltan Hüseynoğlu, Əminə Səfərova, Əsgər Quliyeva.Ədəbiyyat müəllim üçün mütodik vasitə 5-ci sinif.Bakı, "Bakı Nəşriyyatı".2012, səh.208

11. Bilal Həsənov, Aynur Mustafayeva,Soltan Əliyev, Nuriyə Verdiyeva. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı, "Bakı Nəşriyyatı", səh.224

12. Dəniz, R. Qəlblərdə yaşayan Mir Cəlal /R. Dəniz; red. Ç. Abdullayev.- Bakı: Yurd NPB, 2008.- 159 s.

13. Ədəbiyyat dərslərində bədii təhlil /Camal Əhmədov,Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu.-Bakı: Maarif, 1967.- 93, [3] s.

14. Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 504 səh.

15. Ədəbiyyat tədrisi metodikası: [Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün dərslik] Bakı: Bakı Universiteti nəşriyyatı, 1992.- 455 s.

16. Ədəbiyyatşünaslığın əsasları: Ali məktəblər üçün dərslik/Mir Cəlal, P.Xəlilov; Red.: F.Hüseynov.- B.: Maarif, 1972.- 280 s.

17. Əfəndiyev İ. İstedadlı nasir: [Mir Cəlalın anadan olmasının 50 illiyi münasibətilə] //Ədəbiyyat və incəsənət.-1958.-26 aprel.

18. Əzimzadə Y. "Həyat hekayələri": [Mir Cəlalın eyni adlı hekayələri haqqında] //Ədəbiyyat qəzeti.- 1946.- 3 iyul.

19. Gülgün, Rəhilə. Göylər adamı: yazıçı, alim, pedaqoq Mir Cəlal haqqında esse-araşdırma: yeni yozum /R. Gülgün; red., ön sözün müəl. N.Q. Cəfərov; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Kür-Araz Nəşriyyat Evi, 2008.- 246 s.

20. Gözün aydın: hekayə // Ədəbiyyat qəzeti.- 1938.- 2 fevral.

21. Hacıyev, Aqil. Poeziyadan nəsrə: Mir Cəlal nəsrinin poetik əsasları /A. Hacıyev; elmi red. N.Q. Cəfərov; rəy.: Q.M. Namazov, Ə.M. Xəlilov.- Bakı: ADPU nəşriyyatı, 2011.- 37 s.

22. H. Əfəndiyev. M. F. Axundovun nəsri. Bakı, Azərnəşr, 1954

23. Hüseynov Ə. Mir Cəlal. //Azərbaycan Sovet yazıçıları (Ədəbi portretlər).- B.: Azərnəşr, 1958.- S.172-178

24. Hüseynov Ə. Mir Cəlal.- B.: Yazıçı, 1991.- 191 s.

25. Hüseynov Ə. Mir Cəlalın Böyük Vətən müharibəsi illərində yazdığı hekayələr //V.İ.Lenin adına APİ-nin əsərləri. İctimai elmlər seriyası.- 13-cü cild.- 1960.- S.122-131

26. Hüseynov Ə. Mir Cəlalın hekayələri //Azərbaycan.-1956.- № 2.- S.137-149

27. Hüseynov Ə. Mir Cəlalın hekayələri: [Filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya].- B., 1960.- 229 s

28. Hüseynov Ə. Mir Cəlalın hekayələrində gülüşün mahiyyət və vasitələrinə dair //V.İ.Lenin adına APİ-nin əsərləri.-1962.- 21-ci cild.- S. Əliyeva İ. Görkəmli nasir: [Yazıçı-alim Mir Cəlal haqqında] //S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti. Elmi əsərlər. Dil və ədəbiyyat seriyası.- 1978.- № 3.- S.34-38 63-75

29. Hüseynov Ə. Mir Cəlalın hekayələrində satira və yumor //Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun əsərləri.-IV cild.- II buraxılış.- 1957.- S.197-213

30. Xəlilov Q. Hekayələr haqqında: [Məqalədə "Badam ağacları" hekayəsindən də bəhs olunur] //Ədəbiyyat qəzeti.- 1954.-10 aprel.

31. Xəndan C. Mir Cəlal.- B.: Azərbaycan SSR Siyasi və elmi bilikləri yayan cəmiyyət, 1958.- 48 s.

32. Xəndan C. Mir Cəlalın hekayələri //Azərbaycan ədəbiyyatı (Sovet dövrü).- B., 1940.- S.87-93

33. İbrahimov M. Yaradıcılığın qaynar bulağı: [Mir Cəlalın yaradıcılığından da bəhs olunur] //Xəlqilik və realizm cəbhəsindən.- B., 1961.- S.171-179

34. İsmayılov Y. Mir Cəlalın yaradıcılığı.- B.: Elm, 1975.-236 s.

35. İsmayılov, Yaqub Murad oğlu. Mir Cəlalın yaradıcılığı: monoqrafiya /Y.M. İsmayılov; elmi red. Ş.H. Alışanlı; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 2010.- 292 c.

36. Kamran M. Hekayələrimiz haqqında: [Mir Cəlalın "Ulduz"; "Badam ağacları" hekayələrindən də danışılır]//Kommunist.- 1955.- 15 mart.

37. Məmməd Məmmədov. Cəlil Məmmədquluzadənin bədii irsi, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, bakı, 1963.səh 101

38. Məmmədov C. Müəllim, yazıçı, alim: [Mir Cəlalın elmi-pedaqoji fəaliyyətinə dair] //Azərbaycan müəllimi.- 1948.-8 iyul.

39. Mir Cəlal görkəmli yazıçı və ədəbiyyatşünas kimi: məqalələr toplusu /layihənin rəh. Ş. Şəmşirli; ön sözün müəl. Ş.H. Alışanlı; tərt. H. Misirov; red. Ə. Cabbarlı.- Bakı: Elm və Təhsil, 2013.- 108 s.

40. Mir Cəlal yaradıcılığında vətən sevgisi: görkəmli Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfransların materialları, 2008

/Regionların İnkişafı İctimai Birliyi; red. T. Həmid; tərt. İ. Əhmədov.- Bakı : Çaşıoğlu, 2009. - 208 s.

41. Mir Cəlal: Müasirlərinin xatirələrində və yaradıcılığından örnəklər /Tərtibçi və ön sözün müəllifi fil. elm.dok., prof. Teymur Əhmədov.- B: Azərbaycan Ensiklopediyası NPB, 1998.- 232 s.

42. Mir Cəlal: Müasirlərinin xatirələrində və yaradıcılığından örnəklər /Tərtibçi və ön sözün müəllifi fil. elm.dok., prof. Teymur Əhmədov.Azərbaycan Ensiklopediyası NPB, 1998.- 232 s.

43. Mir Cəlal, Secilmiş əsərləri, Bakı, Azərnəşr, 1956, səh.340

44. Mirəhmədov Ə. Mir Cəlalın yeni hekayələri//Ədəbiyyat qəzeti.- 1943.- 13 fevral.

45. "Molla Nəsrəddin", 20 avqust 1910, №30

46. Mirzə İbrahimov. Böyük demokrat. Bakı, Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, 1957, 231 səh.

47. Nəriman Məmmədov. Ə. Haqverdiyev. Bakı, "Gənclik", 1970, 197 səh.

48. Orta məktəbdə ədəbiyyat tədrisi /Camal Əhmədov, M.Aslanov, A.Babayev; Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu.- Bakı:Maarif, 1966.- H.I.- 291 s.

49. Orucov, Hidayət Xuduş oğlu. Mir Cəlal dünyasından sətirlər. Bakı: Əbilov, Zeynalov və oğulları, 2006.- 84 s.

50. Rəhimli, İlham Əziz oğlu. Məram: məbədə doğru gedən yol: Mir Cəlal yaradıcılığının səhnə həyatı ,Regionların İnkişafı İctimai Birliyi.- Bakı: Çaşıoğlu, 2009.- 383 s.

51. Rzaquluzadə M. Nəsrimizdə kiçik hekayə: ["Gözün aydın" hekayəsindən də bəhs olunur] //Ədəbiyyat qəzeti.- 1939.-24 aprel.

52. Seçilmiş əsərləri /tərt. Y. İsmayılov.- Bakı: Şərq-Qərb, 2005.- 384 s.- (Müasir Azərbaycan ədəbiyyatı).

53. Seçilmiş əsərləri /tərt. Y.İsmayilov, T. Həsənzadə;I cild, Azərnəşr, 1986. 464 səh.

54. Seçilmiş əsərləri /tərt.-red.: N.A. Paşayeva, T.M. Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi. I kitab.- Bakı: Çaşıoğlu, 2008.- 438 s.

55. Seçilmiş əsərləri /tərt.-red.: N.A. Paşayeva, T.M. Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi. II kitab.- Bakı: Çaşıoğlu, 2008.- 462 s.

56. Seçilmiş əsərləri /tərt.-red.: N.A. Paşayeva, T.M. Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi. III kitab.- Bakı: Çaşıoğlu, 2008.- 450 s.

57. Seçilmiş əsərləri: 4 cilddə. 1-ci cild: Roman və hekayələr/Red.: Y.Məmmədov.- B.: Azərnəşr, 1967.- 519 s.

58. Seçilmiş əsərləri: 4 cilddə. 2-ci cild: Roman və hekayələr/Red.: Y.Məmmədov.- B.: Azərnəşr, 1967.- 499 s.

59. Seçilmiş əsərləri: 4 cilddə. 3-cü cild: Roman və hekayələr/Red.: G.Həsənzadə.- B.: Gənclik, 1968.- 525 s.

60. Seçilmiş əsərləri: 4 cilddə. 4-cü cild: Roman və hekayələr/Red.: G.Həsənzadə.- B.: Gənclik, 1968.- 473 s.

61. Seçilmiş əsərləri: 5 cilddə /Mir Cəlal; tərt.: N.A. Paşayeva, T.M. Mütəllimov; red. Ş.Ə. Axundov.II cild: Hekayələr.- Bakı: Adiloğlu, 2013.- 444 s.

62. Seçilmiş əsərləri: 5 cilddə /tərt.: N.A. Paşayeva, T.M. Mütəllimov; red. Ş.Ə. Axundov.I cild: Hekayələr.- Bakı: Adiloğlu, 2013.- 442 s.

63. Seçilmiş əsərləri: 5 cilddə /tərt.: N.A. Paşayeva, T.M. Mütəllimov; red. Ş.Ə. Axundov.III cild: Hekayələr.- Bakı: Adiloğlu, 2013.- 456 s.

64. Seçilmiş əsərləri: 5 cilddə /tərt.: N.A. Paşayeva, T.M. Mütəllimov; red. Ş.Ə. Axundov.IV cild: Hekayələr.- Bakı: Adiloğlu, 2013.- 468 s.

65. Seçilmiş əsərləri: 5 cilddə /tərt.: N.A. Paşayeva, T.M. Mütəllimov; red. Ş.Ə. Axundov.V cild: Felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr.- Bakı: Adiloğlu, 2013.- 318 s.

66. Seçilmiş əsərləri: hekayələr və romanlar /tərt.: Ədibə Paşayeva: ön söz müəl. və red.: N. H əsənzadə.- B.: Çaşıoğlu, 2005.- 479 s.

67. Şəmistan Mikayilov, Asya Bəkirova. Ümumitəhsil məktəblərin 5-ci 11-ci siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı, 2008, 428 səh.

68. Silah qardaşları: Hekayələr /Red.: R.Salamova.- B.:Gənclik, 1974.- 293 s.

69. Tapdıq İ. Əziz bir insanı xatırlayıram: [Mir Cəlal haqqında xatirələr].- B., 1999.- 26 s.

70. Ümumi təhsil sistemində dərslik siyasəti. Azərbaycanın təhsil siyasəti (1998-2005), II kitab. Bakı, "Təhsil", 2005

71. Vəliyev M. Sadə adamlar haqqında hekayələr: [Mir Cəlalın "Sadə hekayələr" kitabı haqqında] //Ədəbiyyat və incəsənət.- 1955.- 25 sentyabr.

72. V-VIII siniflərdə ədəbiyyat tədrisi /Camal Əhmədov,Ə.R.Əfəndizadə; Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu.- Bakı: [s.n.], 1961.- 149 s.

73. Yusifov F., Ədəbiyyatın tədrisi metodikası, ali məktəblər üçün dərslik, Bakı 2013.

74. Zamanov A. Əlli illik yaradıcılıq yolu: [Mir Cəlal haqqında] //Zamanov A. Əməl dostları.- B., 1979.- S.324-329

75. Zülfiyyə Veysova. Ümumi orta təhsil səviyyəsin üzrə yeni fənn kurukulumlarının tətbiqi. Bakı, “İnkişaf” Elm Mərkəzi, 2013, 139 səh.